www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 13 avqust 2024-cü il Çərşənbə axşamı № 142 (8515) Qiymәti 60 qəpik

**Xəbər**

## ABŞ-ın müəmmalı planı - "Zəngəzur dəhlizi" şərti olmadan sülh sənədi...

yazısı səh.8-də

# "Azərbaycanı vuraq" iddiasının arxasındakı iki sirr - Bakının təmkini...

İngilis nəşri İran prezidentinin İsrailin Azərbaycandakı bazalarına zərbələr endirməyi təklif etdiyini yazır; halbuki ölkəmizdə nə belə bazalar var, nə də Pezeşkianın orduya əmr vermək səlahiyyəti; "Ölkəmizin ərazisində hər hansı xarici dövlətin hərbi kontingenti mövcud deyil" - rəsmi

yazısı səh.6-da



# "Poqonlu dəstə"dən həbslər davam edəcək - faktlar

"Otkat"a görə qandallanma sırası Nəcməddin Sadıkova da çata bilər

yazısı səh.11-də

**Gündəm**

### Seçkidə bu dairələrdə ən kəskin rəqabət olacaq - kimlər var?



"Elə namizədlər ortaya çıxıb elə təbliğat apara bilər ki, bu, sürpriz olar"

yazısı səh.3-də

### "Fitch Solutions" Azərbaycanda iqtisadi artımla bağlı gözləntilərini açıqladı

yazısı səh.3-də

### Bakıdakı separatçıların "xilası" üçün "şəkər və qan təzyiqi" uydurması

yazısı səh.4-də

### Putin: "Kiyev rəhbərliyi Ukrayna xalqını məhv etmək yolunu tutub"

yazısı səh.13-də

### Ermənistan sülh və insanlıq əleyhinə: həm silahlanır, həm ərazi iddiası qalır...

yazısı səh.7-də

### Kimlər universitetə imtahansız qəbul olur? - siyahı

yazısı səh.12-də

### Yay Olimpiya Oyunları - 2024 yekunlaşdı: nə umduq, nə qazandıq?

yazısı səh.14-də

### Azərbaycanda həm kərə, həm də zeytun yağının qiyməti artıb - səbəb

yazısı səh.10-da

### Şahin Bağırov gömrükdə rüşvətin kökünün hələ də kəsilmədiyini etiraf etdi

yazısı səh.2-də

### Bakı-Şamaxı yolunda hərəkət tam məhdudlaşdırılır

yazısı səh.15-də

### Ulduzlarla bizi necə aldadırlar - bürclərə inananlar oxusun

yazısı səh.15-də



### "Evdən işləyən nazir" haqda sensasiın iddia - Məmmədyarovun Moskva arzusu...

yazısı səh.9-da



*Deputat Bəhruz Məhərrəmov:*

### "Prezidentin yaratdığı yeni reallıq bölgəyə mühüm perspektivlər vəd edir"

yazısı səh.5-də



*İlqar Orucov:*

### "Təhsilin uğurları təkcə imtahanın nəticələrindəki göstəricilərlə ölçülmür, buna görə..."

yazısı səh.12-də



## Yerli istehsala aid müasir suvarma sistemləri 60% güzəştlə satılacaq - sərəncam

**Prezident İlham Əliyev 19 dekabr 2018-ci il tarixli fərmanı ilə təsdiqlənmiş "Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitindən istifadə Qaydası"nda dəyişiklik edib.**

Musavat.com xəbər verir ki, dövlət başçısı bununla bağlı yeni fərman imzalayıb.

Fərmana əsasən, bundan sonra İqtisadiyyat Nazirliyinin müəyyən etdiyi meyarlara uyğun olaraq yerli istehsala aid edilən müasir suvarma sistemləri 60% güzəştlə satılacaq.



## Azərbaycanda əmək müqavilələri elektron qaydada bağlanacaq

**Əmək müqaviləsi elektron informasiya sistemində elektron sənəd formasında bağlanacaq, əmək müqaviləsi bildirişi ləğv olunur.**

APA xəbər verir ki, bu, Prezident İlham Əliyevin tətbiqi barədə Fərman imzaladığı Əmək Məcəlləsinə dəyişiklikdə əksini tapıb.

Qanuna əsasən, siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş dövlət orqanlarında çalışan, eləcə də əmək müqavilələrinə 2014-cü il iyulun 1-dək xitam verilmiş işçilərin əmək stajı onların əmək kitabçası əsasında müəyyən ediləcək.

Əmək Məcəlləsinə dəyişiklik qüvvəyə mindiyi tarixdən elektron informasiya sistemində məlumatları mövcud olan əmək kitabçaları işəgötürənlər tərəfindən işçilərə təhvil veriləcək. Bu qanun qüvvəyə mindiyi günədək bağlanılmış əmək müqavilələrinin elektron sənəd formasına keçirilməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi mərhələlərə uyğun olaraq həyata keçiriləcək.

## Xidmət rəsmisi: "Ən yüksək rütubət Xəzər dənizinin şimalında və cənubunda olur"

**Aparılan hidrometeoroloji müşahidələrə əsasən deyə bilərik ki, ilin soyuq dövründə Xəzər dənizində şərq, şimal-şərq və şimal küləkləri, ilin isti dövründə isə qərb, şimal-qərb və bəzi yerlərdə cənub-şərq istiqamətli küləklər üstünlük təşkil edir. Ən sürətli küləklər (tufanlar) Abşeron, Mahaçqala və Manqışlaq ərazilərində müşahidə edilir.**

APA xəbər verir ki, bunu Milli Hidrometeorologiya Xidmətinin rəsmisi Gülnarə Abbasova "Xəzər günü" nə həsr olunan tədbirdə jurnalistlərə açıqlaması zamanı deyib.

O qeyd edib ki, tarixən Xəzər dənizi regionun xalqları üçün böyük əhəmiyyət kəsb edib və müşahidə altında saxlanılması insanlar üçün önəmli olub: "Qapalı su hövzəsi olan Xəzər dənizinin (gölünün) su səthinin sahəsi böyük və hidrometeoroloji şəraiti mürəkkəb olmaqla səviyyəsi Baltik sistemi ilə təqribən - 28 metrdir".

Dənizin və ətraf ərazilərin qeyri-bərabər qızması və soyuması nəticəsində, xüsusilə onun cənub hissəsində musson və briz küləkləri, Orta və Cənubi Xəzərin qərb sahillərində, dağların sahilə yaxın ərazilərində isə Böyük Qafqaz dağlarından əsən fen küləkləri müşahidə edilir.

Onu da qeyd edək ki, ərazi üzrə ən yüksək rütubət Xəzər dənizinin şimalında və cənubunda olur. Yay aylarında ən aşağı rütubətə dənizin cənub-şərq hissəsində rast gəlmək olur.

Xəzər dənizində güclü dalğalanma xüsusilə payız və qış aylarında əsən güclü şimal və cənub istiqamətli küləklərin əsməsi ilə yaranır. Ən böyük dalğalar isə cənub küləyi zamanı orta Xəzərlə sərhəd ərazilərdə müşahidə edilir".

# Şahin Bağırov gömrükdə rüşvətin kökünün hələ də kəsilmədiyini etiraf etdi



**Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov Baku TV-nin "Rəsmi cavab" verilişində müsahibə verib.**

Musavat.com xəbər verir ki, komitə sədri son dövrlər gömrük sahəsində aradan qaldırılan nöqsanlardan, eləcə də vətəndaş şikayətlərindən danışıb.

Şahin Bağırov gömrük qaydalarının necə tənzimlənməsi, həmçinin gömrük orqanlarında rüşvət və korrupsiya ilə mübarizə tədbirlərinin hansı səviyyədə olması ilə bağlı sualları da cavablandırıb.

Komitə sədrinin müsahibədə "gömrükdə rüşvətin kökü hələ kəsilməyib" fikirləri də ciddi müzakirələrə səbəb olub.

## Qətlə yetirilən biznesmenin qardaşı oğlu həbs edildi



**Bir neçə gün əvvəl Bakının Xəzər rayonunda güllələnərək qətlə yetirilən biznesmenin qardaşı oğlu həbs olunub.**

"Qafqazinfo" xəbər verir ki, avqustun 7-də axşam saatlarında Mərdəkandakı "Qazilər" çimərliyində 1972-ci il təvəllüdlü Amin Xudaverdiyevin güllələndiyini eşidən qohumu C.Xudaverdiyev həmin yerə gedib.

1998-ci il təvəllüdlü oğlan əmisinin meyitinə yaxınlaşmaq istəyərkən polislər onu ərazidən uzaqlaşdırmaq istəyiblər. Lakin C.Xudaverdiyev müqavimət göstərib və ünvansız söyüşlər söyüb. Bundan sonra C.Xudaverdiyev saxlanılıb və barəsində Xəzər Rayon Polis İdarəsinin 1-ci Polis Şöbəsində İnzibati Xətalar Məcəlləsinin 535.1-ci (polisin qanuni tələbinə qəsdən tabe olmama) maddəsi ilə protokol tərtib edilib.

Xəzər Rayon Məhkəməsinin 10 avqust tarixli qərarı ilə ona 30 sutka inzibati həbs cəzası verilib.

Qeyd edək ki, Amin Xudaverdiyevi qətlə yetirməkdə şübhəli bilinən 1993-cü il təvəllüdlü Ruhulla Abdullazadənin atası ötən ilin noyabrında qətlə yetirilib. Belə ki, həmin vaxt Amin Xudaverdiyevin kiçik qardaşı Pərviz Xudaverdiyev silahla Ruhullanın atası Cavanşir Abdullayevi güllələyərək öldürüb. Polis tərəfindən saxlanılan və barəsində cinayət işi açılan P.Xudaverdiyevin istintaqı hazırda davam etdirilir. Bu qətlin də məhz qisas zəminində törədildiyi deyilir.

Amin Xudaverdiyevin biznes fəaliyyəti ilə məşğul olduğu, yaşadığı Mərdəkan qəsəbəsində və ətraf ərazilərdə nüfuz sahibi olduğu bildirilir.

Faktla bağlı Xəzər Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb, R.Abdullazadə iş üzrə şübhəli şəxs qismində tutulub.



## Hakan Fidan Blinkenlə telefon danışığı aparıb

**Türkiyə xarici işlər naziri Hakan Fidan bu gün ABŞ dövlət katibi Entoni Blinkenlə telefon danışığı aparıb.**

APA-nın Türkiyə müxbirinin verdiyi xəbərə görə, bu barədə Türkiyə XİN-in sözçüsü Öncü Keçeli bildirib.

O qeyd edib ki, qarşı tərəfin tələbi ilə baş tutan danışıq zamanı İsraillə HƏMAS arasındakı danışıqlar prosesi və bölgədə artan gərginlik müzakirə edilib.

Nazir Fidan HƏMAS Siyasi Bürosunun rəhbəri Haniyənin öldürülməsi və fələstinlilərə qarşı davam edən qırğın İsrailin sülhü bərqərar etmək istəmədiyinin göstəricisi olduğunu vurğulayıb.

Türkiyəli diplomat, həmçinin daimi atəşkəs üçün İsrailə təzyiq edilməli olduğunu da bildirib.

## Türkiyənin "F-35" qırıcıları proqramına qayıtması ilə bağlı danışıqlar davam edir

**Ankara və Vaşinqtonun Türkiyənin "F-35" qırıcıları proqramına qayıtmaq məsələsi ilə bağlı yanaşmaları dəyişməyib, lakin danışıqlar davam edir.**

APA-nın Türkiyə müxbirinin verdiyi xəbərə görə, bu barədə Türkiyənin milli müdafiə naziri Yaşar Güler "Reuters"ə müsahibəsində bildirib.

Yaşar Güler həmçinin ölkəsinin Böyük Britaniya, Almaniya və İspaniyadan "Eurofighter Typhoon" təyyarələri almaq istədiyini, lakin hələlik konkret nəticənin olmadığını da vurğulayıb.

YENİ MÜSAVAT
N 142 (8515) 13 avqust 2024

# Seçkidə bu dairələrdə ən kəskin rəqabət olacaq - kimlər var?

## "Elə namizədlər ortaya çıxıb elə təbliğat apara bilər ki, bu, sürpriz olar"

**Sentyabrın 1-də keçiriləcək Milli Məclisə növbədənkənar seçkilərdə iştirak üçün 1052 nəfərin deputatlığa namizədliyi qeydə alınıb.**

Növbədənkənar parlament seçkiləri ilə əlaqədar seçkiqabağı təşviqat kampaniyası avqustun 31-i saat 08:00-a kimi davam edəcək.

Yada salaq ki, Yeni Azərbaycan Partiyasının namizədləri 125 dairənin hamısında mübarizə aparacaq. İndi əsas diqqət hansı dairələrdə daha kəskin rəqabətin olacağıdır. Ekspertlər xüsusilə müxalifət partiya sədrlərinin qeydə alındığı dairələrdə kəskin rəqabətin olacağı gözlənilir.

Məsələn, Respublikaçı Alternativ Partiyasının (REAL) sədri İlqar Məmmədov 22 saylı Nəsimi-Yasamal seçki dairəsində Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə ilə mübarizə aparır. Milli Məclisin İnsan hüquqları komitəsinin sədri, Sosial Tədqiqatlar Mərkəzinin rəhbəri Zahid Orucla 33 saylı Xətai birinci seçki dairəsində namizədliyini irəli sürmüş iqtisadçı ekspert, REAL İdarə Heyətinin üzvü Natiq Cəfərli arasında da yarış maraqla gözlənilir. Milli Cəbhə Partiyasının sədri Razi Nurullayevin namizədliyini irəli sürdüyü 81 saylı İmişli seçki dairəsindən YAP-ın namizədi Məmmədov İsrafil, Klassik Xalq Cəbhəsi Partiyasının sədri Mirhahmud Mirəlioğlunun isə 43 saylı Sumqayıt İkinci seçki dairəsindən hakim partiyanın namizədi Tahir Mirkişili arasında da ciddi rəqabət olacağı söylənilir.

Azad Vətən Partiyasının sədri Akif Nağı 124 saylı Şuşa-Ağdam-Xocavənd seçki dairəsindən ciddi rəqibi Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğludur. Xalq Partiyasının sədri Pənah Hüseynin 68 saylı Sabirabad-Şirvan seçki dairəsindən rəqibi də zəif hesab edilə bilməz. YAP həmin seçki dairəsində Kamal Cəfərovu yenidən deputat görmək istəyir.



AĞ Partiyanın başqanı Tural Abbaslının 21 saylı Nəsimi-Binəqədi seçki dairəsindən rəqibi isə tanınmış YAP-çı xanım Məlahət İbrahimqızıdır. O, ikinci, üçüncü, dördüncü, beşinci və altıncı çağırış Milli Məclisin deputatı olub. Ədalət, Hüquq, Demokratiya Partiyasının sədri Qüdrət Həsənquliyevin 36 saylı Xətai-Suraxanı dairəsindən rəqibi də YAP-çı xanımdır.

10 saylı Binəqədi üçüncü seçki dairəsində də mübarizə diqqəti çəkir. Bu dairədə Müsavat Partiyasının başqan müavini Razim Əmraslanlı və Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev əsas iddiaçılar qismində görünür. YAP bu dairədən bələdiyyə sədri Hümbət Hüseynovun namizədliyini irəli sürüb.

Bu dairədən Demokratik İslahatlar, Yeni Zaman və Milli Cəbhə partiyaları da namizədlər irəli sürüb.

Bəs seçkidə hansı dairələrdə ən kəskin rəqabət olacaq var?

**Mövzu ilə bağlı AĞ Partiya sədri, deputatlığa namizəd Tural Abbaslı "Yeni Müsavat"a danışıb:** "Ümumiyyətlə, bu ehtimalları indidən demək doğru deyil. Çünki elə namizədlər ola, elə təbliğatlar apara bilərlər ki, bu sürpriz olar. Yəni insanların tanımadığı elə namizədlər ortaya çıxa bilər ki, onların dairələri qeyd etdiyiniz dairələri kölgədə qoyar.

Burada əslində təbliğat-təşviqat dönəminin gedişatından, yaradılan mühitdən, rəqabətə girən insanlardan çox şey asılı olacaq. Məsələn, rəqiblər çox gizlənməyəcəksə, debat dəvətlərini qəbul edəcəklərsə və yaxud aktiv təbliğat aparacaqlarsa, o zaman rəqabət mümkündür. Amma birtərəfli rəqabət maraqlı deyil".

**33 saylı Xətai birinci seçki dairəsində namizədliyini irəli sürmüş iqtisadçı ekspert, REAL İdarə Heyətinin üzvü Natiq Cəfərli isə qeyd edib:** "Təbii ki, REAL nümayəndəsi kimi deyə bilərəm ki, 22 saylı Nəsimi-Yasamal seçki dairəsində partiyanın sədri İlqar Məmmədovun qalib gəlmək şansı çox güclüdür və onunla rəqabət apara biləcək bir tək Asim Mollazadədir, o da ona görə ki, uzun illərdir həmin dairədən deputat olub. Təbii ki, digər partiya sədrləri, o cümlədən AĞ Partiya sədri Tural Abbaslının dairəsində də kəskin rəqabət gözlənilir.

Lakin qeyd etdiyim kimi, İlqar Məmmədovun qalib gəlmək şansı həddindən artıq yüksəkdir. Bu baxımdan, hesab edirəm ki, seçkidə 22-ci dairədə çox maraqlı mübarizə olacaq".

**Xalq Partiyasının sədri Pənah Hüseyn isə sorğumuza bu cür cavab verdi:** "Hesab edirəm ki, ortada heç bir rəqabət yoxdur. Amma bilmək olmaz, bəlkə elə dairədən elə namizəd olacaq ki, daha böyük təsir imkanına malik olacaq və rəqabət mühiti yarada biləcək. Bunu seçkinin gedişatında görəcəyik. İndidən nəsə konkret fikir söyləmək olmur".

**Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev isə bildirib:** "Öncə qeyd edim, REAL sədri İlqar Məmmədov nə vaxt seçkilərdə heç olmasa 8-ci yer tutub? Amma mən 5 dəfə 2-ci yer tutmuşam. Ona görə də hesab edirəm ki, müqayisə bir qədər qüsurludur. Bəli, Mirmahmud Mirəlioğlu həmişə səs götürüb, amma elə adamlar var ki, onlar heç 3-cü yeri belə götürə bilməyiblər".

Onu da qeyd edək ki, parlament seçkiləri ilə bağlı qeydə alınan beynəlxalq müşahidəçilərin sayı açıqlanıb. Belə ki, Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahovun sözlərinə görə, indiyə qədər 46 ölkə və 29 qurumdan 267 beynəlxalq müşahidəçi qeydə alınıb. MSK sədri əlavə edib ki, ATƏT Parlament Assambleyasının 60 nəfər, ATƏT Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun 40 nəfər müşahidəçisi artıq qeydiyyatdan keçib. TBMM, Gürcüstan, Qazaxıstan, Rusiya parlament nümayəndələri, GUAM Qaradəniz İqtisadi Əməkdaşlıq təşkilatı seçkini müşahidə edəcək.

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

# Parlament seçkilərində "exit-poll" keçirmək üçün iki təşkilat qeydə alınıb

**Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar "exit-poll" keçirmək üçün iki təşkilat müraciət edib.**

APA-nın xəbərinə görə, bu barədə Mərkəzi Seçki Komissiyasının (MSK) dünən keçirilən iclasında MSK sədrinin müavini Rövzət Qasımov məlumat verib.




Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası "ORACLE ADVISORY GROUP" (Amerika Birləşmiş Ştatları) ilə birgə "exit-poll" keçirmək niyyətini bildirib. "Tərəqqi" Sosial Tədqiqatlar İctimai Birliyi isə SWG S.P.A Tədqiqatlar Şirkəti (İtaliya) ilə birgə "exit-poll" keçirmək üçün müraciət edib.

Bu təşkilatların müraciətləri səsverməyə çıxarılıb və qəbul edilib.

Qeyd edək ki, Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar "exit-poll" keçirmək niyyətində olan təşkilatların akkreditasiya üçün təqdim etdikləri sənədlərin qəbul edilməsi üçün ayrılan müddət avqustun 12-dək olan dövrü əhatə edib.

## "Fitch Solutions" Azərbaycanda iqtisadi artımla bağlı gözləntilərini açıqlayıb



**"Fitch Group"a aid olan "Fitch Solutions" (FS) şirkəti 2024 və 2025-ci illər üzrə Azərbaycanda real ÜDM-in artım proqnozunu ötən rüblə müqayisədə dəyişməz saxlayıb.**

"APA-Economics" xəbər verir ki, FS Azərbaycanın iqtisadi artım proqnozunu yenidən 2024-cü il üzrə 2,6% və 2025-ci il üzrə isə 2,8% müəyyən edib.

Qeyd edilib ki, ölkənin əsas sənayesi karbohidrogenlə bağlıdır. Ona görə də iqtisadi artım proqnozu ilə bağlı risklər müəyyən edilərkən qlobal karbohidrogen qiymətləri əsas götürülür: "2024-cü ilin ilk beş ayında Azərbaycan iqtisadiyyatı əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,2% artıb. Bu artımı bir tərəfdən qlobal enerji qiymətlərinin yüksəlməsi, digər tərəfdən isə inflyasiyanın yavaşlaması ilə əlaqələndirə bilərik. Yaxın Şərqdəki gərginlik təbii qaza tələbin güclü qaldığı bir vaxtda xam neft qiymətlərinə yüksələn təzyiq göstərib. Əsas karbohidrogen istehsalçısı və ixracatçısı kimi bu dinamika Azərbaycan iqtisadiyyatına müsbət təsir göstərəcək".

Bununla belə, "Fitch Solutions" bildirib ki, hökumətin apardığı diversifikasiya səylərinə baxmayaraq, ölkə böyümə üçün enerji sektorundan ciddi şəkildə asılıdır: "Karbohidrogen istehsalı 2016-cı ildən 2023-cü ilə qədər ÜDM-in 45,9%-ni və ümumi ixrac gəlirlərinin 92%-ni təşkil edib".

YENİ MÜSAVAT
N 142 (8515) 13 avqust 2024




# Azad edilmiş ərazilərdə daha 207 mina, 10 040 PHS aşkarlandı

**İşğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) tərəfindən icra olunan əməliyyatlar barədə həftəlik (05.08.2024 - 11.08.2024) məlumat açıqlanıb.**

ANAMA-dan APA-ya verilən məlumata görə, Tərtər, Ağdam, Ağdərə, Laçın, Füzuli, Şuşa, Xocalı, Xankəndi, Kəlbəcər, Xocavənd, Cəbrayıl, Qubadlı və Zəngilanda 163 piyada əleyhinə mina, 44 tank əleyhinə mina, 10 040 Partlamamış Hərbi Sursat (PHS) aşkarlanıb.

Bildirilib ki, 1 224,3 hektar ərazi mina və PHS-lərdən təmizlənib.




# "Lufthansa" və "Swiss Air" İsrail və Livana uçuşları ləğv edib

**"Lufthansa" və "Swiss Air" hava yolları şirkətləri İsrail və Livana uçuşları ləğv edib.**

APA "Reuters"ə istinadən xəbər verir ki, adıçəkilən şirkətlər avqustun 21-dək İsrail və Livana uçuşu dayandırıblar.

İsrailə uçuşu daha əvvəl dayandırmış Almaniyanın "Lufthansa" şirkəti bildirib ki, Təl-Əviv, Tehran, Beyrut, Əmman və Ərbilə uçuşların dayandırılmasını avqustun 21-dək uzadıb. Şirkət bu müddət ərzində İran və İraq hava məkanından istifadə etməyəcək.

"Swiss International Air Lines" da bildirib ki, həmin tarixə qədər İran, İraq və İsrail üzərində hava məkanından istifadə etməyəcək.

# Bakıdakı separatçıların "xilası" üçün "şəkər və qan təzyiqi" uydurması

**Azər Badamov:** "Saxlanılan 15 nəfərin əli qana bulaşıb, onlara..."

**Sona Əliyeva:** "Bu canilərin Ermənistana ekstradisiyası da mümkün deyil"



**Erməni mətbuatı əli Azərbaycan xalqının qanına batmış şəxsləri, ərazilərimizdə bölücülüklə, separatizmlə məşğul olanları "qəhrəman", "günahsız" kimi qələmə verir.**

"Joqovurd" iddia edir ki, guya Levon Mnatsakanyanın şəkər xəstəliyi ilə bağlı ciddi problemləri var və həbsxana şəraitində xəstəlik daha da ağırlaşıb, Bako Saakyanın da qan təzyiqi və ürək-damar sistemində ciddi problemləri mövcuddur. Guya Ruben Vardanyan aprel ayında aclıq aksiyası keçirdiyi və saxlanma şəraitinin pis olması səbəbindən pisləşib.

Bu, əlbəttə, yeni erməni hiyləsidir. Onları həbsxanadan, ədalət məhkəməsinin qarşısına çıxmaqdan xilas etmək üçün hər cür uydurmalara əl atırlar. Bir məqamı da xatırladaq ki, Beynəlxalq Qırmızı Xaç Komitəsinin Bakı ofisinin nümayəndələri separatçılara baş çəkir və onlar dəfələrlə bəyan ediblər ki, sözügedən şəxslərin nə saxlanma şəraitlərindən, nə də başqa məsələlər barədə şikayətləri var. Amma indi erməni mediası onlardan "xəstə obrazı" yaratmaqla beynəlxalq təşkilatların diqqətini cəlb etməyə cəhd edirlər.

Yada salaq ki, 15 nəfərlə bağlı istintaq hərəkətləri başa çatıb, təqsirləndirilən şəxslər, vəkillər və zərərçəkmiş şəxslər cinayət işi materialları ilə tanış olurlar. Bundan sonra ittiham aktı məhkəməyə göndəriləcək. Azərbaycan qanunlarına görə, müttəhimlər və onların vəkillərinə ittiham aktı ilə tanış olmaq üçün işin həcmindən asılı olaraq 1-3 ay zaman ayrılır.

Arkadi Qukasyan, Bako Saakyan, Araik Arutyunyan, sabiq "xarici işlər naziri" Davit Babayan, eləcə də "parlament sədri" David İşxanyan, generallar Lyova Mnatsakanyan, David Manukyan və digərləri müharibə cinayətlərində ittiham olunurlar. Azərbaycanın hüquq-mühafizə orqanları və istintaqçıları erməni separatçılarının ötən 30 il ərzində xalqımıza qarşı törətmiş olduğu hərbi cinayətləri detalları ilə araşdırıb. Azərbaycanlılara qarşı soyqırımında, doğma yurd-yuvalarından qovulmasında, əmlaklarının talan edilməsində və s. kimi cinayətlərdə iştirak ediblər. Erməni uydurması nəyə hesablanıb, COP29 ərəfəsi Azərbaycana beynəlxalq təzyiqləri artırmaq istəməklə nəyə nail olmağa ümid edirlər?

**Deputat Azər Badamov saxlanılan hər bir separatçının qanun qarşısında cavab verəcəyini qeyd etdi:** "Bakıdakı separatçılara ermənilərin qan təzyiqi və şəkərdən əziyyət çəkmə kimi xəstə obrazını yaratmaqda məqsədi COP29 tədbiri ərəfəsində beynəlxalq ictimaiyyətin diqqətini bu məsələyə cəlb etmək və Azərbaycana təzyiq göstərmək üçün beynəlxalq rəy yaratmağa hesablanıb. Əslində Bakıda təcridxanada saxlanılan separatçılar üçün həbsxana həyatı normalarına uyğun hər bir şərait yaradılıb. O cümlədən Qırmızı Xaç Komitəsinin nümayəndələri də mütəmadi olaraq onlara baş çəkirlər. Separatçılar saxlanma şəraitindən narazılığını heç vaxt bildirməyiblər. Hətta onlara öz ailələri ilə danışmaq üçün mütəmadi şərait yaradılır. Hər bir cinayətkar özünün törətdiyi cinayətlərinə görə cəzasını almalıdır. Onlar azərbaycanlılara qarşı soyqırımlar törədəndə bu günün gələcəyini bilmirdilər? Hətta azərbaycanlılara işgəncələr verəndə, ölmüş canları təhqir edəndə insanlıq harada idi? Onların etdiklərini təkrarlayanlar olsaydıq, 20 sentyabrda biz də bunu edə bilrdik. Amma biz ermənilərə Qarabağda vətəndaşlarımız kimi yaşamağa qalmağını tövsiyə etdik. Azərbaycan vətəndaşlığını almağı özünə yaraşdırmayanlara isə ərazilərimizi könüllü şəkildə tərk etmək üçün təhlükəsiz şərait yaratdıq. Biz çox humanist xalqıq. Belə ki, onların azərbaycanlıların başına gətirdikləri oyunlarını biz təkrarlamırıq. Biz saxlanılan bütün separatçılara qanun çərçivəsində yanaşırıq və onlar ittiham kürsüsünə çıxarılacaqlar. Saxlanılan 15 nəfərin əli qana bulaşıb. Onlara qarşı qoyulan ittihamlar tam ədalətlidir və hətta yumşaq davranmamız kimi də qeyd edə bilərəm. Ermənilər onlar haqqında nə obraz yaratsalar da bir köməyi olmayacaq. Cinayətkarlar cəzalanacaqlar".

**Siyasi təhlilçi Sona Əliyeva Ruben Vardanyanla bağlı prosesin kökündə ən çox da onun maliyyəsinin dayandığını düşünür:** "Ermənilərin separatçı və cəlladları imkan düşüncə gah "qəhrəman", "fədai", gah da "məzlum", "yazıq" kimi qələmə verilir. Adətən ikinci yola quyruqları qapı arasında qalanda baş vururlar. Bu, elə erməni xislətinin əyani göstəricisidir. Artıq erməni xisləti nəinki bizi, dünyada heç kəsi təəccübləndirmir. Hər kəs ermənilərin xəstə təfəkkürünün müalicəsinin olmaması ilə barışıb. İşğalçı ölkə mediasının bu cür saxta ittiham və qarayaxma kampaniyalarına məhz indi start verməsi təəccüblü deyil. Çünki Azərbaycan COP29 kimi mötəbər bir tədbirə ev sahibliyi etməyə hazırlaşır. Onlar Azərbaycanı yenə də dünyaya "qara fon"da təqdim etməyə çalışırlar. Levon Mnatsakanyan və Arkadi Qukasyan qatı müharibə cinayətkarlarıdır. Eləcə də Bako Saakyan, Araik Arutyunyan, sabiq "xarici işlər naziri" Davit Babayan, "parlament sədri" David İşxanyan, generallar Lyova Mnatsakanyan, David Manukyan və digərləri müharibə cinayətlərində ittiham edilirlər. Fikrimcə, ermənilərin qara kampaniyaları onların əməllərinin qarşılığı olaraq həbsdə yatmalarına maneə yarada bilməyəcək. Çünki onların hamısı öz suç və günahlarını etiraf ediblər. Hətta Araik Arutyunyan Gəncədə onlarla sivilin ölümünə görə məsuliyyət daşıdığını həbs olunmamışdan əvvəl dilə gətirmişdi. Onların Ermənistana ekstradisiyası da mümkün deyil. Fikrimcə, erməni mediası sözün hər iki mənasında "təzyiq" göstərərək "məzlum cəlladları"ın İrəvana köçürülməsinə nail olmaq istəyirlər. İstənilən halda bu mümkün olmayacaq. Ruben Vardanyanı isə Qərbdəki havadarları həbsdən azad etmək üçün dəridən-qabıqdan çıxır. Ona görə ki, onun pulları Rusiya-Ukrayna savaşında Ukrayna üçün çox vacib sərmayə və donor ola bilər".

**❑ Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 142 (8515) 13 avqust 2024

**Avqust ayının 9-da Qazaxıstanın paytaxtı Astanada Mərkəzi Asiya Dövlət Başçılarının görüşündə Azərbaycan Prezidenti İlham Əliyev növbəti dəfə fəxri qonaq qismində iştirak etdi. Prezident görüşdə çıxışında deyib ki, Azərbaycan və Mərkəzi Asiya ölkələri artan strateji əhəmiyyətə malik olan vahid tarixi-mədəni coğrafi regiondur və xalqlarımızı çoxəsrlik tarix, mədəniyyət, din və ortaq dəyərlər birləşdirir.**



# Prezidentin Mərkəzi Asiya strategiyasının şifrələri - rəylər

## Deputat: "Onun yaratdığı yeni hərbi-siyasi, o cümlədən iqtisadi konfiqurasiya, formalaşan yeni reallıq bölgəyə mühüm perspektivlər vəd edir"

Azərbaycan Prezidenti Ermənistanın işğalından azad edilmiş Qarabağın bərpasına Mərkəzi Asiya ölkələrinin dəstəyini qardaşlıq münasibətlərinin göstərici kimi yüksək qiymətləndirib.

**Dövlət başçımız çıxışında Mərkəzi Asiya ölkələri ilə qarşılıqlı fəaliyyətin mühüm istiqamətlərindən birinin də nəqliyyat-tranzit sahəsində əməkdaşlığın olduğunu qeyd edib:** "Bakı-Tiflis-Qars dəmir yolunun yükaşırma qabiliyyətinin 1 milyon tondan 5 milyon tonadək artırılması, Ələt Beynəlxalq Ticarət Limanının illik ötürücülük qabiliyyətinin 15 milyon tondan 25 milyon tonadək artırılması istiqamətində görülmüş işlər, Xəzər dənizində Azərbaycanın ticarət donanması üçün yeni gəmilərin sifariş edilməsi, eləcə də Mərkəzi Asiya ölkələrində infrastruktur layihələrinin həyata keçirilməsi Orta dəhlizin praktiki cəhətdən önəmini daha da artırır".

Ölkəmizin fəal üzvü olduğu və işində aktiv iştirak etdiyi təsisatlardan biri də Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirədir. Asiya məkanında təhlükəsizlik məsələlərinin müzakirə edildiyi önəmli beynəlxalq bir platforma olan AQEM-in hazırda 28 üzvü var (Azərbaycan, Türkiyə, Əfqanıstan, Bəhreyn, Kamboca, Çin, Misir, Hindistan, İran, İraq, İsrail, İordaniya, Qazaxıstan, Qırğızıstan, Küveyt, Monqolustan, Pakistan, Fələstin, Koreya Respublikası, Rusiya, Tacikistan, Tailand, BƏƏ, Özbəkistan, Vyetnam, Qətər, Banqladeş, Şri-Lanka). Daha 10 ölkə - ABŞ, Belarus, İndoneziya, Yaponiya, Malayziya, Laos, Filippin, Ukrayna, Səudiyyə Ərəbistanı, Türkmənistan, həmçinin BMT, ATƏT, Beynəlxalq Miqrasiya Təşkilatı, Ərəb Dövlətləri Liqası, Türk PA kimi beynəlxalq təşkilatlar AQEM-də müşahidəçi statusuna malikdirlər. AQEM-in inzibati orqanı Astana şəhərində yerləşən Katiblikdir. 2020-ci ildən AQEM-ə Qazaxıstan sədrlik edir.

Bütün bunlar bir daha göstərir ki, Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında əlaqələrin böyük perspektivləri mövcuddur. Bu gün Avropanın enerji təhlükəsizliyinə ciddi töhfələr verən Azərbaycan Şərqlə Qərb arasında, o cümlədən Mərkəzi Asiya ölkələri üçün mühüm tranzit ölkə və etibarlı tərəfdaşdır. Əminliklə söyləmək olar ki, Azərbaycanın beynəlxalq əlaqələri bundan sonra daha da genişlənəcək, onun müxtəlif regionlar arasında rolu bundan sonra da davam edəcək.

**Deputat Bəhruz Məhərrəmov Ali Baş Komandanın çıxışının çox vacib məqamlarına toxundu:** "Proseslərin gedişi göstərir ki, müasir dünyada güc amili tamamilə yeni meyarlarla ölçülür. Eyni zamanda bu gün dövlətlər üçün ucsuz-bucaqsız geniş ərazilər yox, strateji nöqtələrdə qərarlaşmaq daha effektiv və arzuolunandır. Qazaxıstanı çıxmaq şərtilə, nə Orta Asiya dövlətləri, nə də Azərbaycan çox geniş ərazilərə malik dövlətlər deyil. Lakin əvəzində bu ölkələr kifayət qədər strateji önəmə malik coğrafiyalarda yerləşir. Bu isə qeyd olunan regionlar üçün geniş perspektivlər vəd edir. Qütblərarası ziddiyyətin dərinləşdiyi hazırkı həssas geosiyasi dövrdə bu reallığın fərqinə varmaq çox vacibdir. Ötən dövrdə həyata keçirilən siyasi kursa diqqət etsək, birmənalı şəkildə deyə bilərik ki, Azərbaycan bu reallığın fərqindədir və cənab İlham Əliyev böyük ustalıqla tarixdə ilk dəfə olaraq coğrafi mövqeyimizi Azərbaycan üçün dividentə çevirə bilib. Hazırda Orta Asiya dövlətləri ilə getdikcə güclənən və strateji əməkdaşlıq səviyyəsinə yüksələn əlaqələr regionun önəmini daha da artırmaqdadır. Eyni zamanda əminliklə demək olar ki, Orta Asiya dövlətləri və bütövlükdə regionun digər oyunçuları Azərbaycanın bu prosesdə aparıcı rolunu, Azərbaycan Prezidentinin isə həlledici söz sahibi kimi mövqeyini kifayət qədər aydın şəkildə dərk edir. Elə Mərkəzi Asiya və Azərbaycan Respublikasının dövlət başçılarının Qazaxıstan görüşü də ölkəmizin artan nüfuzunun, hesablaşılan beynəlxalq subyektə çevrildiyimizin və cənab İlham Əliyevə qlobal miqyasda göstərilən ehtiramın ifadəsi kimi qiymətləndirilə bilər. Bildiyiniz kimi, Vətən müharibəsindən sonra Azərbaycan Prezidentinin yaratdığı yeni hərbi-siyasi, o cümlədən iqtisadi konfiqurasiya, formalaşan yeni reallıq bölgəyə mühüm perspektivlər vəd edir. Azərbaycanın zamanında uğurla reallaşdırdığı layihələr bütün tarix boyu faktiki olaraq müstəqil kommunikasiya xətlərinə malik olmamış və bu istiqamətdə asılılıqda qaldığı danılmaz fakt olan Orta Asiya ölkələri üçün də geniş üfüqlər açıb. Yəni bu gün Mərkəzi Asiyanın dövlətləri Azərbaycan vasitəsilə Qərbə təhlükəsiz və etibarlı çıxış imkanları əldə edib. Bu, Azərbaycanın tranzit mövqeyinin güclənməsi ilə yanaşı, həm də Azərbaycan Prezidentinin uzaqgörənliklə reallaşdırdığı qlobal miqyaslı layihələrin əhəmiyyətinin və uzunömürlülüyünün daha da artması deməkdir. Qeyd olunanları nəzərə alaraq birmənalı şəkildə demək olar ki, Azərbaycana münasibət, xüsusən qütblərarası ziddiyyətin dərinləşdiyi bir məqamda kommunikasiya xətlərinin önəminin artması şəraitində həm Orta Asiya üçün, həm də Orta Asiyanın resurslarına ehtiyac duyan beynəlxalq subyektlər üçün xüsusi önəm daşımaqdadır. O cümlədən də Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə platformasında da Azərbaycanın rolu məhz qeyd etdiyimiz amillər çərçivəsində qiymətləndirilir. Heç şübhəsiz ki, bu amillər tarixi proseslərin təbii axarının yox, illər ərzində Azərbaycanda həyata keçirilən düzgün, şaxələndirilmiş və balanslaşdırılmış siyasi, iqtisadi və geostrateji kursun uğurla realizəsinin nəticəsidir".

**Ədalət, Hüquq və Demokratiya Partiyası sədrinin müavini, politoloq Elçin Mirzəbəyli ölkə başçısının prezident seçildikdən sonra andiçmə mərasimində etdiyi çıxışından sitatlar gətirdi:** "Azərbaycan, təkcə Mərkəzi Asiya istiqamətində deyil, bütövlükdə Avrasiya məkanında müttəfiq və tərəfdaşlarının əhatə dairəsinin genişləndirilməsi istiqamətində uzaq hədəflərə və geosiyasi perspektivlərə yönəlmiş uğurlu addımlar atır. Və ölkəmizin, son bir neçə ay ərzində Şanxay Əməkdaşlıq Təşkilatı, BRİKS, AQEM və digər bu kimi nüfuzlu təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi istiqamətində yürütdüyü siyasətin bütün komponentləri bir-biri ilə zəncirvari şəkildə bağlıdır. Hazırda dünyada baş verən qlobal geosiyasi dəyişikliklər, yeni dünya düzəninin təşəkkül tapması reallığı Avrasiya məkanında yeni əməkdaşlıq platformalarının yaranmasına, yaxud daha öncə mövcud olan, lakin indiki qədər fəallıq nümayiş etdirməyən təsisatların yenidən dirçəlməsinə zəmin yaradıb. Qloballaşma, yaxud Samuel Hantinqtonun "sivilizasiyaların qarşıdurması" nəzəriyyəsi üzərindən dünyanı güclülərin əbədi kaloniyasına çevirmək istəyən dairələrin hegemon iddiaları sona varmaq üzrədir. XXI əsrdə, mövcud geosiyasi reallıqlara uyğun olaraq, qlobal təsisatların iflası, milli dövlətlərin inkişafı mərhələsi başlayıb və hər zaman klassik, milli dövlətçilik ənənələrinə üstünlük verən Azərbaycan öz milli maraqlarına uyğun hərəkət edərək, yeni iqtisadi əməkdaşlıq və təhlükəsizlik konfiqurasiyalarının formalaşmasında aktiv şəkildə çıxış edir və bir çox hallarda bu proseslərdə birləşdirici amil funksiyasını yerinə yetirir.

Bu baxımdan, Prezident İlham Əliyevin Mərkəzi Asiya Dövlət Başçılarının görüşündə növbəti dəfə fəxri qonaq qismində iştirakı və çox mühüm mesajlar verməsi, şübhəsiz ki, ölkəmizin Avrasiyada cərəyan edən geosiyasi proseslərin ən mühüm aktorlarından biri olduğunun növbəti sübutudur.

Cənab Prezident öz nitqində qeyd etdi ki, Azərbaycan və Mərkəzi Asiya ölkələri artan strateji əhəmiyyətə malik olan vahid tarixi-mədəni coğrafi regiondur və xalqlarımızı çoxəsrlik tarix, mədəniyyət, din və ortaq dəyərlər birləşdirir. Əslində dövlətimizin başçısının bu fikirləri, onun növbəti dəfə Azərbaycan Prezidenti seçildikdən sonra andiçmə mərasimində ifadə etdiyi mühüm mesajların davamı kimi qiymətləndirilməlidir. Azərbaycan Prezidenti andiçmə mərasimində bəyan etmişdi ki, bizim ailəmiz Türk dünyasıdır, başqa ailəmiz yoxdur. Əslində bu yanaşma Azərbaycanın milli dövlətçilik fəlsəfəsinin təməl sütununu təşkil edən və Prezident İlham Əliyev tərəfindən həyata keçirilən, Türk dünyası üçün tarixi əhəmiyyət kəsb edən prosesin ana xəttini təşkil edir. Mərkəzi Asiya ölkələrinin əhəmiyyətli hissəsini də, bəlli olduğu kimi, türk dövlətləri təşkil edir. Türk dövlətləri, hazırda Avrasiyanın əhəmiyyətli hissəsində mövcud olan, yaxud yeni formalaşan bütün əməkdaşlıq və təhlükəsizlik platformalarının nüvəsini təşkil edir. Daha doğrusu, təşkil etmək potensialı kifayət qədər böyükdür".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**



# Yaşar Güler: "Türkiyə ŞƏT-lə əlaqələrdə maraqlıdır, amma NATO öhdəliklərinin icrası prioritetdir"

Türkiyə Şanxay Əməkdaşlıq Təşkilatı ilə əlaqələrin genişlənməsində maraqlı olsa da, NATO qarşısındakı öhdəliklərin icrası prioritetdir.

APA-nın məlumatına görə, bunu "Reuters"ə müsahibəsində adıçəkilən ölkənin milli müdafiə naziri Yaşar Gülər deyib.

O bildirib ki, üzv dövlətlər Şimali Atlantika Alyansının daha hazırlıqlı, qətiyyətli və güclü bir qurum olması üçün səyləri birləşdirməlidir.

Nazir həmçinin Türkiyə və Suriya ilə münasibətlərin normallaşmasına toxunarkən, hər iki ölkənin müdafiə nazirləri səviyyəsində görüşünü istisna etməyib.

Y.Gülərin sözlərinə əsasən, bunun üçün əlverişli şərait yaranmalıdır.

YENİ MÜSAVAT
N 142 (8515) 13 avqust 2024




## "Azərbaycan ərazisində hər hansı xarici dövlətin hərbi kontingenti mövcud deyil" - rəsmi

**İsrailin öz hərbçilərinə Azərbaycanda qalmağı qadağan etməsi barədə yayılan məlumatlar dezinformasiyadır.**

Musavat.com xəbər verir ki, bu barədə Medianın İnkişafı Agentliyinin (MEDİA) yaydığı bəyanatda qeyd olunub.

Bildirilib ki, son dövrlər bəzi ölkələrin media resursları mötəbərliyi şübhə doğuran mənbələrə istinad edərək Azərbaycan barədə həqiqəti əks etdirməyən, yerli və beynəlxalq auditoriyanın ictimai rəyini çaşdırmağa yönəlmiş məlumatlar yaymaqdadırlar: "Dezinformasiyanın təsiri altında "İran International" televiziya kanalı, habelə "The Telegraph" nəşri və "Kan" agentliyi Azərbaycan barədə beynəlxalq jurnalistika standartları ilə bir araya sığmayan informasiya manipulyasiyası həyata keçirib, guya İsrailin öz hərbçilərinə Azərbaycanda qalmağı qadağan etməsi barədə dezinformasiya yayıblar".

**Vurğulanıb ki, Azərbaycan ərazisində hər hansı bir xarici dövlətin hərbi kontingenti mövcud deyil və bununla bağlı yalan məlumatlara söykənmiş informasiya manipulyasiyaları ciddi şəkildə qınanılır:** "Eyni zamanda bir daha diqqətə çatdırırıq ki, hansı ölkədə fəaliyyət göstərməsindən asılı olmayaraq, media məlumatları paylaşarkən hamı tərəfindən qəbul olunmuş jurnalistikanın vahid etik prinsiplərinə əməl etməlidir. Bu tipli klassik dezinformasiya nümunəsi olan materialların sosial şəbəkə seqmentinə sirayət etdikdən sonra bəzi yerli media subyektlərimiz tərəfindən təkrar tirajlanmasını yolverilməz hesab edirik".

Bəyanatda cəmiyyətə yalnız rəsmi mənbələrin verdiyi məlumatlara inanmağa, jurnalistləri, ictimai fəalları bu kimi hallara qarşı hər zaman prinsipiallıq nümayiş etdirməyə, saxta və yalan məlumat əsaslı kampaniyaların vüsət aldığı bir şəraitdə sayıq olmağa çağırış edilib.



## Üç ölkədən İrana xəbərdarlıq

**Fransa, Almaniya və İngiltərə liderləri İrana xəbərdarlıq ediblər.**

Musavat.com xəbər verir ki, bu barədə məlumatı "Vesti İsrail" yayıb.

Məlumatda qeyd olunur ki, Fransa, Almaniya və Britaniya liderləri birgə bəyanat yayaraq, İrandan Yaxın Şərqdə gərginliyi daha da artıracaq, atəşkəs və girovların qaytarılması şansını zədələyəcək "hücumdan çəkinməyi" xahiş ediblər.

# "Azərbaycanı vuraq" iddiası arxasındakı iki sirr - Bakının təmkini...

**Britaniyanın "The Telegraph" nəşrinin İran prezidentinin İsrailin Azərbaycandakı bazalarına zərbələr endirməyi təklif etməsi barədə yazdıqları ətrafında müzakirələr davam edir. "Yeni Müsavat" yada salır ki, ingilis nəşri İran prezidentə yaxın mənbəyə istinadən "Pezeşkian qorxur ki, İsrailə qarşı hər hansı birbaşa hücum ciddi nəticələrə səbəb ola bilər" yazıb. "O, Azərbaycanda və ya İraq Kürdüstanında İsraillə bağlı nəyisə hədəfə almağı və sonra bu barədə həmin ölkələrlə danışmağı və bütün dramlara son qoymağı təklif edib", - deyə Pezeşkianın digər köməkçisi "The Telegraph"a bildirib. İranda İsraillə qarşıdurmanı Azərbaycan platformasına keçirmək istəyən qüvvələrin (xüsusilə SEPAH) olduğu bəllidir. Pezeşkianın "İsraillə qarşıdurmada Azərbaycanı vurmaq" təklifini verdiyi haqda yayılan informasiyaları rəsmi Tehran nə təkzib, nə təsdiq edir.**

### İngilis nəşri İran prezidentinin İsrailin Azərbaycandakı bazalarına zərbələr endirməyi təklif etdiyini yazır; halbuki ölkəmizdə nə belə bazalar var, nə də Pezeşkianın orduya əmr vermək səlahiyyəti...



Azərbaycan səfirliyinin yenidən Tehranda fəaliyyətə başlaması, Pezeşkianın prezident seçilməsindən sonra Azərbaycanın dövlət başçısı İlham Əliyevin ona təbrik zəngi, inauqurasiya mərasimində baş nazir səviyyəsində iştirak iki ölkə arasında normallaşma prosesinin həm Tehranın, həm Bakının maraqlarında olduğunu göstərir. Bəzi ekspertlərə görə, bu baxımdan onun "Azərbaycanı vuraq" mövqeyindən çıxış etməsi bir az şübhəli, bir az da gerçəkdən uzaq kimi görünür. Çünki Azərbaycanda "İsrail bazaları" mifdir, ikincisi, ölkəmizin ərazisinə hər hansı real təhdid müharibə elanı demək olardı ki, bu da Tehranın çətin marağında olsun. Üstəlik, Pezeşkian təbrizlidir və Azərbaycanla əlaqələrə xələl gətirəcək tapşırıq verməz. Ən əsası isə İranda prezidentin orduya əmr vermək səlahiyyəti yoxdur və ali dini lideri Əli Xamenei bu göstərişi vermək hüququna malikdir. Bu baxımdan belə bir informasiyanın tirajlanması İran daxilində Azərbaycana qarşı olan qüvvələrin - SEPAH-ın özünün marağında ola biləcəyi versiyası ortaya çıxır.

SEPAH-ın isə Azərbaycana, yumşaq desək, qərəzli münasibəti bəllidir. Şübhəsiz, İrandakı iki turda keçirilən seçkidə Azərbaycanda Pezeşkianın milliyyəti ilə bağlı xəbərlərə xüsusi diqqət ayrılması SEPAH-ın nəzərindən qaça bilməz. İkinci bir tərəfdən, İsrailə "qisas bayrağı" qaldıran SEPAH mümkündür ki, bu cür iddialarla Azərbaycanı hədəf göstərməklə düşdükləri "Bəs nə oldu?" sualından diqqəti yayındırmağa çalışsın. Maraqlıdır ki, rəsmi Tehran normallaşma prosesində maraqlı olduğunu göstərsə də, yeni prezidentin adından yayılan bəyanatı təkzib etməyə tələsmirlər. Bakının da bu iddialara reaksiya verməməsi diqqət çəkir. Mümkündür ki, Tehran diplomatik kanallarla bu iddianı yalanlasın, yaxud ingilis nəşrinin yazdığı fantaziyalara münasibət bildirməyə ehtiyac görmürlər...

**Professor Qabil Hüseynlinin "Yeni Müsavat"a bildirdiyinə görə, ingilis nəşrinin yaydığı xəbər cəfəngiyyatdır. O inanmır ki, İran belə bir səhvə yol versin. Q.Hüseynli İranın Haniyənin qətlinə görə cavab zərbəsinin gecikdiyini düşünür**: "Ötən həftə Britaniya xarici işlər naziri iranlı həmkarı ilə telefon söhbəti apardı, ondan az əvvəl ABŞ xarici işlər naziri Blinken İsrail və İrana çağırış etdi, diplomatik kanallarla Tehrana mesaj göndərildiyini açıqladı. Hiss olunur ki, ABŞ İranın İsrailə cavab verməsini istəmir. Eyni zamanda "Patriot" nəşri yazdı ki, Vaşinqton mövqeyini Tehrana belə izah edib - Haniyə vurularkən heç bir İran vətəndaşı zərər görməyib, bu baxımdan cavaba gərək yoxdur. Amma İran nüfuzuna söz gəlməsin deyə hər hansı şəkildə İsrailə zərbə endirmək niyyətindən əl çəkməyib, lakin bunun Azərbaycan ərazisi olmayacağı dəqiqdir, çünki bizim torpaqlarımızda onların axtardıqları bazalar yoxdur".

**Professor belə bir hücumun İrana baha başa gələ biləcəyini düşünür, üstəgəl, Pezeşkianın orduya əmr vermək səlahiyyəti olmadığını bildirir:** "Bundan başqa, bir təbrizli prezident öz rəhbərliyi dövründə Azərbaycana raket atılması, yaxud hansısa zərbə vurulması ilə tarixdə qalmaq istəyərmi? Məncə, bu cür informasiyalar İsrail-Azərbaycan, İran-Azərbaycan əlaqələrini korlamağa hesablanıb. Hazırda hər iki tərəflə əlaqələr inkişafdadır. İranın isə qisas almaq fikri varsa, Tel-Əvivə zərbə endirsin, nəticəsini də görsün. Həmçinin burada Rusiya və Türkiyə amilləri var. İranın Azərbaycana bir güllə atması belə kifayətdir ki, regionda vəziyyət tamamilə dəyişsin. Zənnimcə, bu məlumat barmaqdan sovrulmuş bir bleffdir".

**Siyasi şərhçi Asif Nərimanlı**ya görə, İranda İsraillə qarşıdurmanı Azərbaycan platformasına keçirmək istəyən qüvvələrin olduğu bəllidir. Onun fikrincə, məhz bu kontekstdə Pezeşkianın SEPAH-a "İsraillə qarşıdurmada Azərbaycanı vurmaq" təklifini verdiyi haqda yayılan informasiyalar diqqət çəkir. Ekspert hesab edir ki, Pezeşkianın azərbaycanlı olması onun Azərbaycanın maraqlarını İranın maraqlarına qurban verəcəyi demək deyil, əksinə, rejimin içindən çıxan doktorun lazım gələrsə, hər şeyə əl atacağı, yaxud rejimin anti-Azərbaycan qərarlarına qarşı çıxmaq gücündə olmadığı aydındır. Lakin o da aydındır ki, İsraillə qarşıdurmadan çəkinən Pezeşkian Azərbaycanla normallaşma prosesini də dəstəkləyir və bu baxımdan, onun "Azərbaycanı vuraq" mövqeyindən çıxış etməsi şübhəlidir: "Belə bir informasiyanın tirajlanması İran daxilində Azərbaycana qarşı olan qüvvələrin - SEPAH-ın özünün marağındadır. Azərbaycanla normallaşma prosesini dəstəkləyən Pezeşkianı Bakı ilə üz-üzə qoyur. Cənubi Azərbaycanda Pezeşkiana olan inamı zədələyirlər. İstisna deyil ki, SEPAH İsraillə mümkün qarşıdurmada Azərbaycanı hədəfə almaq, yaxud Bakıya qarşı köhnə təhdidləri yeniləmək ssenarisini də hazırlayır. Pezeşkianın adından belə bir məlumatın yayılması hadisələrin inkişafında Bakının rəsmi Tehranla diplomatik təmaslarına maneələrin yaradılması məqsədi daşıyır. Hərçənd Tehran Bakı ilə normallaşma prosesinə şübhələrin yaranmaması üçün Pezeşkianın adından yayılan bəyanatı təkzib etməlidir".

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 142 (8515) 13 avqust 2024

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması**

# Ermənistan sülh və insanlıq əleyhinə: həm silahlanır, həm ərazi iddiası qalır...

## Ekspertlər İrəvan-Bakı arasında sülh müqaviləsinə əngəlləri, bölgəni gözləyən eskalasiya riskini açıqladılar

**"Ermənistan sülh istəsəydi, son 4 illik danışıqlar prosesində hər dəfə bir bəhanə uydurmazdı". Bu fikirləri "Yeni Müsavat"a hərbi analitik Ramil Məmmədli İrəvanın London görüşündən qaçması, ABŞ-dan Ermənistana gələn iki hərbi təyyarə dolu silah-sursatla təmin edilməsi barədə danışarkən deyib.**




Onun sözlərinə görə, Ermənistan sülh və insanlıq əleyhinə olan siyasətini gücləndirir və bu yöndə ona istiqamət verən ölkələr də stimullaşdırır. Hərbi ekspert hesab edir ki, hazırda ABŞ, Fransa, Hindistan Ermənistanı silahlandırmaqla Cənubi Qafqazda eskalasiya təhlükəsini gün-gündən artırır, bölgədə toqquşmalara səbəb olacaq tendensiya sürətlənir. R. Məmmədliyə görə, müharibədə məğlubiyyət Ermənistana ağır zərbə oldu və indi "soyuq duş" effekti yaradan bu şəraitdən çıxmaq üçün ordu Qərbdən silahlanır: "Ermənistanın hərbi təxribatları azalsa da, vaxtaşırı olur. Habelə, qarşıda təxribat xarakterli addımlar istisna edilmir. Fransa COP29 tədbirləri ərəfəsində sərhəddə lokal qarşıdurma olmasını və buna görə Azərbaycanı ittiham etməsini istəyərdi. Təbii ki, Azərbaycan dövləti təmkinli siyasət yürüdəcək və mümkün təxribatlara lazımi cavab veriləcək. Sadəcə, məsələ ondan ibarətdir ki, Ermənistan nə qədər xarici təsirlərə uyaraq hərəkət edir, o qədər sülh prosesi ləng inkişaf edəcək. Hərçənd Ermənistanın sülh müqaviləsini imzalaması üçün tutarlı səbəbi də qalmayıb. Hətta nəqliyyat kommunikasiyalarının açılması da sonraya saxlandı və sülh mətnindən çıxarıldı. Yeni Bakı buna da getdi, görək İrəvan indi hansı bəhanə axtarıb tapacaq".

Hərbi ekspertin fikrincə, Ermənistana təzyiq davam etməlidir və sülh sənədini imzalamağa məcbur edilməsi ilə yanaşı, bu dövlətin ordusunun Qarabağda sülh və insanlıq əleyhinə törətdiyi cinayətləri haqda beynəlxalq ictimaiyyət daha çox məlumatlandırılmalı, ayrı-ayrı keçmiş məcburi köçkünlər Ermənistana qarşı təzminat tələbi irəli sürüb Avropa İnsan Haqları Məhkəməsində iddia qaldırmalıdırlar. Ona görə deyirəm ki, Ermənistan hərtərəfli sıxışdırılmalıdır və bu tələbləri irəli sürmək haqqımızdır".

**Hərbi ekspert istisna etmir ki, Avropa İnsan Haqları Məhkəməsi vəsatətlərin bir hissəsini təmin edə bilər**: "Hər nə qədər Qərbdə bizə qarşı xoşagəlməz və ədalətsiz münasibət olsa da, düşünürəm ki, evləri erməni işğalçı qüvvələri tərəfindən yağmalanmış Qarabağ sakinlərinin Ermənistandan təzminat istəmək haqqı hüquqi müstəvidə təmin edilə bilər. Çünki Ermənistan işğal dövründə yüzlərlə müharibə cinayəti törədib, sülh və insanlıq əleyhinə bağışlanmaz addımlar atıb. Ona görə də sülh müqaviləsi imzalansa belə, Ermənistanın bizə vurduğu ziyan ödənilməlidir".

**Politoloq Zaur Məmmədov isə bu qənaətdədir ki, hazırda Bakı və İrəvan arasında danışıqlarda ən böyük maneə olaraq Ermənistan konstitusiyasında ölkəmizə qarşı ərazi iddiaları qalır:** "Paşinyan bu yükü cəmiyyətə ötürməli və erməni xalqı gələcəyi ilə bağlı qərarını verməlidir. Azərbaycan və Ermənistan qarşılıqlı şəkildə nəqliyyat xətləri ilə bağlı məsələləri sülh müqaviləsinin mətnindən çıxarıb.

Xatırladım ki, tərəflər arasında ən mübahisəli məqamlardan ikincisi məhz Zəngəzur dəhlizi ilə bağlı idi. Məsələni qəlizləşdirən amillərdən biri bu yolla bağlı regional və beynəlxalq aktorların bir-birinə zidd yanaşmaları idi. Qərb Zəngəzur və açılması nəzərdə tutulan digər yollarda nəzarətin beynəlxalq şirkətin öhdəliyinə verilməsini təklif edib. Bir neçə ay əvvəl Şarl Mişel bu təklifi tərəflərə təqdim edib. ABŞ-da baş tutan XİN rəhbərləri arasında görüşdə də bu məsələ müzakirə edilib. Rusiya üçtərəfli bəyanatda göstərildiyi kimi, özü tərəfindən yola nəzarət edilməsini istəyir. Şoyqunun Bakıda "kommunikasiya xətlərinə Qərbi buraxmaq olmaz" kimi ismarışları Moskvanın narahatlığından xəbər verir. Öz növbəsində, İran heç bir halda Zəngəzur dəhlizinin açılmasının tərəfdarı deyil və son açıqlamalar, xəbərdarlıqlar da beynəlxalq şirkətlə bağlı təklifə cavab olaraq verilib. Beləcə, hazırda beynəlxalq şəraitin onsuz da gərgin olmasını nəzərə alsaq, sülh müqaviləsi ilə bağlı danışıqlarda müzakirə edilən mövzular arasından nəqliyyat mövzusunun çıxarılması tam başa düşüləndir".

Qeyd edək ki, rəsmi Bakı ötən həftə sülhə əngəl olan yeganə səbəbi açıqlayıb. "AzadlıqRadiosu"na Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi, səfir Elçin Əmirbəyov deyib: "Ermənistan konstitusiyasında təsbit edilmiş Azərbaycana qarşı ərazi iddiaları Bakı ilə İrəvan arasında sülh prosesində gələcək irəliləyiş üçün yeganə maneə olaraq qalır".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Emil SALAMOĞLU

# Moskva Tiflislə barışıq yollarını arayır?..

**Əlbəttə, bir dövlətin mətbuat xidmətinin rəhbərinin sözlərini hələ bu dövlətin rəsmi mövqeyi kimi qəbul etmək olmaz, hətta bu, Xarici İşlər Nazirliyi kimi mühüm bir qurum olsa da.**



**Hüseynbala SƏLİMOV**

Amma o da var ki, bir peşəkar və məsuliyyətli diplomat kimi XİN sözçüsü gözəl bilir ki, o, mətbuat üçün açıqlamalarda özünün hansısa "fikir və mülahizə"lərini deyil, təmsil etdiyi nazirliyin və dövlətin mövqeyini çatdırmalıdır, əks halda, bu, ciddi bir hökumət deyil, sadəcə, özfəaliyyət olardı.

Odur, bu yaxınlarda Rusiya XİN-in sözçüçü Mariya Zaxarovanın Gürcüstana Abxaziya və Cənubi Osetiya ilə bu ölkə arasında Moskvanın vasitəçilik etməyə hazır olduğunu söyləməsini də havadan deyilmiş fikir kimi qəbul etmirik, ən azı ona görə ki, indiki vaxtda, Tiflislə Qərb arasında soyuq küləklər əsməyə başladığı dövrdə Rusiyanın Gürcüstana qarmaq atmağa çalışması çox məntiqli görünür - belə ki, hətta ən kritik və pessimist mövqeli siyasi təhlilçilər belə Tiflislə Moskva arasındakı münasibətlərin istləşməyə başladığını qeyd edirlər.

Əlbəttə, burada tələskən oxucu dərhal sual verərdi: axı hansı üzlə? Məgər bir neçə il bundan əvvəl Gürcüstana müharibə açan elə Rusiya deyildimi? Məgər o vaxt Moskva Abxaziyanı və Cənubi Osetiyanı tamam işğal edərək öz "tərkibinə" qatmadımı? Doğrudur, doğrudur və bir daha doğrudur! Amma siyasət də təbiət kimi boşluğu sevmir, xüsusən də hansısa geosiyasi aktor bu boşluğu doldurmaq üçün güdükdə olanda!

Kreml hazırda çox ciddi şəkildə Gürcüstandakı prosesləri izləyir, proseslərsə onun müəyyən xəyallara düşməsinin heç də tamam əsassız olmadığını deməyə əsas verir, çünki hakim "Gürcü arzusu" koalisiyasının ambisiyaları Tiflislə Qərb arasındakı münasibətləri kəskin şəkildə soyudub. Gürcüstanın bu illər ərzində çox çətinliklə qazandığı nailiyyətlərdən, hətta ən əsaslarından biri onun Qərb istiqamətində inteqrasiya yolunda etdiyi irəliləyişlər idi. İvanişvili və onun "siyasi uşaqları" guya Gürcüstanın "təhlükəsizliyini təmin etmək" adı altında ölkənin demokratik strukturlarına və partnyorlarına qarşı demarş etdi. Nəticədə Avropa İttifaqı Tiflisin quruma inteqrasiyasını dayandırdı, ABŞ da bu vaxta qədər böyük dəstək verdiyi bu ölkə ilə demək olar ki, bütün proqramları dayandırdı. Düzdür, hələ hər şey itirilməyib, hamı oktyabr ayında baş tutacaq parlament seçkilərini gözləyir və gürcülər sübut edə bilsələr ki, onlar həqiqətən də avropalı millətdirlər, proseslər yenidən əvvəlki orbitinə qayıdacaq.

Burada başqa bir detal da var. Kremldə başa düşürlər ki, onlar nə qədər çalışsalar da Abxaziyanı və Cənubi Osetiyanı tamam özününküləşdirə bilməyəcəklər, çünki dünyada hələ heç bir siyasətçi deməyib ki, gəlin bu iki subyekti Rusiyanın tərkib hissəsi və yaxud müstəqil qurumlar kimi tanıyaq, baxmayaraq ki, gürcülərin özləri dəfələrlə belə təkliflər veriblər ki, bizi NATO-ya ən azı hələlik Abxaziyasız və Cənubi Osetiyasız qəbul edin! Odur, Kreml də bir az realist olmaq, ən azı bu iki bölgə ilə yenidən Gürcüstanı şirnikləndirmək və öz orbitinə çəkmək istəyir.

Ola bilsin, Gürcüstan hakimiyyətini həm də qonşu Azərbaycanın apardığı siyasət cəlb edir - bəli, Bakı çox ağıllı və tədbirli siyasətlə nəinki Rusiya ilə normal münasibətlər qura bildi, hətta Dağlıq Qarabağı və işğal olunmuş digər əraziləri qaytardı. Amma Bakının misalında Türkiyə kimi çox ciddi amil var, Gürcüstanın isə öz Türkiyəsi yoxdur.

Qərəz, bütün bunları ümumiləşdirərək demək olar ki, hazırda bütün Cənubi Qafqazda, o cümlədən də onun tərkib hissəsi olan Gürcüstanda çox ciddi proseslər gedir - Qərblə Rusiya yamanca çəkişir. Biz bu sətirləri yazanda digər bir bölgədə, haradakı Qərblə Rusiya, sadəcə, çəkişmir, hətta üçüncü ildir ki, müharibə aparır, proseslər bizi ən azı müvəqqəti olaraq Yaxın Şərq məsələsindən qoparıb ayırdı. Bəli, söhbət Ukraynadan və onun Rusiyanın içərilərində apardığı çox uğurlu əməliyyatlarından gedir. Prinsipcə, belə bir gediş istisna olunmurdu və bizə elə gəlir ki, onun bir izi okeanın o biri tayına da aparır: ABŞ demokratlarına bir neçə istiqamətdə ciddi dönüş lazımdır. Onlar öz seçicilərinə ən azı göstərməlidirlər ki, məsələn, Ukraynada apardıqları siyasət doğru və dürüstdür, bu bölgədə Rusiya ilə müharibə aparmaq heç də tamam mənasız və perspektivsiz iş deyil...

Bir sözlə, bir daha deyirik ki, hara baxırsan, Qərblə Rusiya arasında ciddi müharibə gedir - fərq etməz, qaynar, yoxsa soyuq! Mümkündür ki, Ukraynanın üstünlüyü sistemli xarakter alsa, gürcü hakimiyyəti də siyasətini bir az təftiş edərək bir suala cavab axtarmağa çalışacaq: Tiflis Qərbdən məyus olmağa tələsmirmi? Amma bir məsələ də var ki, Qərblə Gürcüstan arasındakı münasibətlərin soyuması İvanişvili və onun siyasi uşaqlarının özəl hakimiyyət ambisiyalarından irəli gəlir - onlar, sadəcə, hakimiyyətdən getmək istəmirlər...

Yeni MÜSAVAT
N 142 (8515) 13 avqust 2024



# Sena çayında çimən gəncəlilər

Zamin HACI
zaminhaci@gmail.com

## Yaxud tamojnada evolyusiya

**Gömrük idarəmizin müdiri başçılıq elədiyi sahədə rüşvətin kökünün hələ kəsilmədiyini etiraf edib, cəmiyyətimiz silkələnib. Hamı qarşıya qoyulan məqsədə görə narahatdır: "Birdən rüşvətin kökü kəsilsə, nə edərik?"**

Doğrudan da iqtisadi sistemimiz, vergi-gömrük qanunvericiliyimiz elədir ki, bəzi işləri rüşvətlə görmək qanuni yolla həll etməkdən qat-qat ucuz başa gəlir. Ona görə xalqın düzgün işləməyə marağı yoxdur. Bir ara hamımızın yaxşı yadındadır, tamojnada (əslində bu, tərtəmiz türk mənşəli sözdür, "tamqa", "damğa" sözündən yaranıb, "gömrük" sözünün etimolojisi nədir, şəxsən mənə aydın deyil; sanki kimisə "gömürük" mənasındadır) rüsumları qanuna uyğun almağa başladılar, qiymətlər kəskin qalxdı, zəhmətkeşlərimiz qan ağlayırdı. Deyəsən, hələ də rüsumlar qanunla alınır, yoxsa inflyasiya davam etməzdi.

Rüsum yazdıqsa və mövzu da tamojnadırsa, mütləq Tahir Əliyev xatırlanmalıdır. Bu yoldaş AXC-Müsavat erasında, 90-ların əvvəlində parlamış mənasız bir orqan işçisi idi, yekə gövdəsi və axmaq cümlələri ilə el-aləmdə tanınmışdı. Məsələn, mənim yadıma gəlir, Şuşa-Laçının işğalı üzrə məhkəmə gedirdi, hakim həmin dövrdə hətta polis naziri də olmuş (müdafiə naziri də işləyib - cəbhəçilər hara p.. qoymaq lazım gəlirdisə, ora Tahir müəllimi göndərirdilər) zata belə sual vermişdi: "İlkin istintaqdakı ifadənizə görə, Turşsuya gedəndə polkovnik Elbrus Orucovun divanda yatdığını görmüsünüz. Bunu təsdiq edirsinizmi?" Tahir müəllim pörtdü və hakimə etiraz elədi: "Bu yalandır! Mən heç vaxt Orucovla bir divanda yatmamışam!"

Ancaq əlbəttə, Tahir Əliyevin ən unudulmaz çıxışı 1995-ci ildə gömrük haqda müşavirədə olmuşdu. Orada tamojnamızın müdiri demişdi ki, camaat elə bilir biz ancaq rüşvət yığırıq, lakin həmin pulların içində rüsum da var. Dövlət başçısının sualına cavabında isə lap gülünc vəziyyətə düşmüşdü: "Nə fərqi var, hamısı puldur".

Yəqin biz Tahir müəllimi "milli Vespasian" ("Pulların qoxusu yoxdur" kəlamının müəllifi və gəncliyində eşşək alveriylə məşğul olmuş qədim Roma imperatoru) elan edə bilərdik. Etmədik. Həmin müşavirədə işdən qovuldu. Ondan sonra tamojna sistemimizin inqilabi dirçəlişi başlandı. Məsələn, bir aralar orda sədrin beş müavinindən dördü nehrəmli idi.

Nəsə, başqa temaya keçmək istəyirəm, çünki korrupsiya bizdə ən maraqsız mövzudur.

Gəncə-Göygöl bölgəsində xalqımızın kütləvi zəhərlənməsi faktı qeydə alınmışdır. (Qısaca "xalq zəhərlənib" də yazmaq olardı, ancaq savadlı görünmək üçün biz belə jurnalistika stili kəşf etmişik. Adamlar ölmür, "vəfat edir". Polis narkotik tapmır, "üzərindən aşkar edib götürür". Yol qəzası olmur, "baş verir" və sairə). Ən azı 100 nəfərə yaxın zəhmətkeşimiz xəstəxanaya "qaldırılmışdır".

Hazırda dövlət orqanları və media zəhmətkeşlərimizin zəhərlənmə mənbəyi üzərində ciddi araşdırma aparır. Bir neçə versiya vardır: yas yerində verilən halva, pomidor turşusundakı botulizm bakteriyası, qarpız, mollanın duası, yerli deputatlığa namizədlərdən kiminsə seçki platforması və sairə. Ümid edirik zəhərin mənbəyi tezliklə aşkara çıxsın.

Açığı, belə zəhərlənmələr adətən kasıbçılıqdan törəyir və bəzi həkimlərimizin məsləhətinə baxmayaraq, xalqın qida seçməyə imkanları yoxdur. Əlimizə nə düşsə, haçan düşsə, harada düşsə yeyirik.

Eyni zamanda bir elmi versiya da mən irəli sürürəm: zəhərlənmənin Paris olimpiadasının son, bağlanış gününə təsadüf etməsi təsadüfdürmü? Axı orada Sena çayında nə qədər üzgüçü zəhərləndi, idmançılar Yelisey çölündə qusa-qusa gəzirdilər, hər gün Eyfelin başından "Böyükağanı" çağırırdılar.

Məncə, Gəncədə zəhərlənənlər Sena çayında çimmişdir. İndi söz əlaqədar təşkil... Özünüz bilirsiniz söhbəti, ta niyə yazım?




# ABŞ-ın müəmmalı planı - "Zəngəzur dəhlizi" şərti olmadan sülh sənədi...

## Analitiklərə görə, nəqliyyat arteriyalarının açılmasının "sonraya" təxirə salınması Ermənistanla Azərbaycan arasında imzalana biləcək sülhü "kövrək" edə və sənədi zəiflədə bilər

**Azərbaycanla Ermənistan arasında imzalanması gözlənilən sülh müqaviləsindən "Zəngəzur dəhlizi" ilə bağlı bənd çıxarıldı. Xəbər verdiyimiz kimi, Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə xüsusi nümayəndəsi Elçin Əmirbəyov Vaşinqtonda "AzadlıqRadiosu"na müsahibəsində rəsmi Bakının Ermənistanla sülh müqaviləsi imzalaması üçün şərtləri açıqlayıb. Əsas olanlardan biri Ermənistan konstitusiyasından Azərbaycana qarşı ərazi iddiaları ehtiva edən bəndin çıxarılmasıdır. Digər şərt isə Ermənistan və Azərbaycanın ATƏT-in Minsk Qrupunun buraxılması ilə bağlı birgə təşəbbüsüdür. E.Əmirbəyov bildirib ki, Bakı kompromis qərar verib, bu məsələnin müzakirəsini sülh müqaviləsi imzalanana qədər təxirə salmağa razılaşıb, bundan sonra Elçin Əmirbəyovun sözlərinə görə, hökumət komissiyaları nəqliyyatın açılması məsələsi ilə bağlı ayrıca danışıqlara başlayacaq.**

Nəzərə alsaq ki, Zəngəzur dəhlizinin açılması əvvəllər Bakının sülh danışıqları üçün şərtlərindən biri olub, rəsmi Bakının sülh müqaviləsi imzalanana qədər bu məsələnin müzakirəsini təxirə salmağa razı olmasının nə demək olduğunu anlamaq lazımdır. Məlum olduğu kimi, Ermənistan 4 ilə yaxındır ki, 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatın mətnində yer alan Zəngəzur dəhlizinin açılması ilə bağlı üzərinə götürdüyü öhdəliyi yerinə yetirməkdən yayınır. Erməni tərəfinin nəqliyyat arteriyasını açmaqdan imtina etməsi regionda vəziyyəti son həddə çatdırdı və az qala yeni müharibəyə səbəb oldu. Yada salaq ki, Zəngəzur dəhlizinin açılmasına Ermənistanla yanaşı, İran da qarşı çıxıb.

Bu vəziyyətdə Bakı İran ərazisindən, sərhəd Araz çayının cənub sahili boyunca yeni nəqliyyat arteriyasının yaradılmasına dair Tehranla ikitərəfli strateji saziş imzalamaqla manevr imkanlarını genişləndirdi. Nəticədə Ermənistan Zəngəzur dəhlizinin açılmasından imtina edərək öz maraqlarına zərər vurdu və yarıqapalı vəziyyətdə qaldı. Halbuki Azərbaycan Tehranda Araz yolu adlanan yeni nəqliyyat arteriyası sayəsində təkcə Naxçıvan anklavı ilə əlaqə yaratmayacaq, həm də gələcəkdə bu marşrut Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin qollarından biri olacaq. Bəzi ekspertlər isə hesab edir ki, nəqliyyat arteriyalarının açılmasının "sonraya" təxirə salınması Ermənistanla Azərbaycan arasında imzalana biləcək sülhü "kövrək" edə bilər. Nəqliyyat əlaqələrinin bərpası və sərhədlərin delimitasiyası gələcəyə qədər təxirə salınarsa, tərəflər hərtərəfli sülh müqaviləsi deyil, yalnız ərazi bütövlüyünün qarşılıqlı tanınması və ona qarşı ərazi iddialarının olmaması ilə bağlı siyasi sənəd imzalayacaqlar. Bu isə tərəflərin imzaladığı sənədi xeyli zəiflədəcək.

Bu arada ABŞ-ın iki hərbi təyyarəsinin İrəvana gəlməsi və Caliber.az-ın "Amerika ordusu Zəngəzura daxil olub" sərlövhəli məlumatı diqqət çəkib, hətta bu ölkənin Ermənistandakı səfirliyi reaksiya verib. ABŞ səfirliyi qısa reaksiya verib: "İyulun 24-də ABŞ və Ermənistan arasında əməkdaşlığın genişləndirilməsinə yönəlmiş "Qartal Tərəfdaşı" təlimi uğurla başa çatıb. Biz təsdiq edə bilərik ki, bütün Amerika texnikası və şəxsi heyəti Ermənistanı tərk edib". Göründüyü kimi, səfirlik "Qartal tərəfdaşı" təlimlərindən bəhs edib, hərbi təyyarələrin nə məqsədlə gəldiyi haqda susub. Bəs ekspertlər nə deyir?

**Siyasi şərhçi Aqşin Kərimov hesab edir ki, Azərbaycan Zəngəzur dəhlizi layihəsini strateji gündəliyindən kənarlaşdırmayıb**: "Prezidentin xüsusin tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyovun məlum açıqlaması Zəngəzur dəhlizi məsələsinin sülh müqaviləsi layihəsinin mətnindən çıxdığını bildirir. Lakin hələ sülh müqaviləsinin yekun mətni də heç hazırlanmayıb. Ümumilikdə bəyanatın ideyası yekunda Zəngəzur dəhlizinin açılacağı haqqında yaxşı təsəvvür yaradır. Ən əsası, dəhliz mövzusunun layihə mətnindən çıxarılması Azərbaycana o imkanı verir ki, Zəngəzur koridorunu sülh müqaviləsindən əvvəl açmaq imkanları nəzərdən keçirsin. Yəni dəhliz ayrı predmetdirsə, onun açılması ilə bağlı zamanlama əvvələ də çəkilə və dəhliz açıldıqdan sonra sülh müqaviləsi bağlana bilər".

**Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri, politoloq İlyas Hüseynovun sözlərinə görə, Azərbaycan və Ermənistan arasında sülh prosesində dəhliz maddəsinin gündəlikdən çıxarılması çox önəmli addımdır. O bildirib ki, bu maddə ilə bağlı kifayət qədər böyük ziddiyyətlər mövcud idi:** "Rusiya tərəfi dəhliz üzərində nəzarəti həyata keçirmək iddiasındadır və bu iddialarından geri çəkilmir. Üçtərəfli birgə bəyanatın 9-cu maddəsində də məhz bu barədə söz açılır. Regionda və dünyada geopolitik mənzərə dəyişir. Rusiya-Ukrayna müharibəsi, Yaxın Şərqdə gedən müharibə və onun daha da gərgin mərhələyə qədəm qoyması gözləntiləri, çağırışları regionumuzu bürüyüb".

**İ.Hüseynovun fikrincə, bu baxımdan Azərbaycan və Ermənistan sülhdə daha israrlı və əmin olmaq üçün kommunikasiyaların açılması, dəhlizlərin, nəqliyyat arteriyalarının işə düşməsi kimi çox önəmli məsələləri növbəti mərhələyə qoyur:** "Azərbaycan hazırda əldə olunan fundamental razılaşdırılmış prinsipləri hüquqi cəhətdən imzalamaqla sülh yolunda daha da irəliləməkdə maraqlıdır. Düşünürəm, bu, bölgədəki sülh təhlükəsizliyi və sabitlik sisteminin daha da möhkəmləndirilməsi baxımından çox böyük əhəmiyyət kəsb edir".

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 142 (8515) 13 avqust 2024



# "Evdən işləyən nazir" haqda sensasion iddia - Məmmədyarovun Moskva arzusu...

## Elxan Şahinoğlu: "Rusiyaya elə bir şəxs səfir göndərilməlidir ki..."

**Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlunun sentyabrın 1-də keçiriləcək növbədənkənar parlament seçkilərində iştirakı dəqiqləşdikdən sonra onun yerinə göndəriləcək namizədlər haqqında müzakirələr davam edir. Bəllidir ki, Polad Bülbüloğlunun 124 saylı Şuşa-Ağdam-Xocavənd seçki dairəsindən namizədliyi təsdiqlənib. Ötən həftəsonu o, qanunlara uyğun olaraq, artıq səfir kimi fəaliyyətini müvəqqəti dayandırıb. Deputat seçiləcəyi təqdirdə isə geri çağırılacaq və onun yerinə yeni təyinat olacaq.**

Azərbaycanın Qarabağda suverenliyini tam bərpa etməsindən və Rusiya sülhməramlılarının ölkəmizi tərk etdikdən sonra Bakı-Moskva münasibətləri siyasi baxımdan stabillik dövrünü yaşayır. Avqustun 6-da Rusiya Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqu ilə görüşdə də Prezident İlham Əliyev bir daha iki ölkə arasında münasibətləri yüksək qiymətləndirib. Azərbaycan-Rusiya münasibətlərinin bəzi qonşu dövlətlər üçün də bir nümunə olduğunu deyən Prezident İlham Əliyev bunu Cənubi Qafqazda və daha geniş məkanda mühüm təhlükəsizlik faktoru kimi dəyərləndirib. Prezident deyib ki, ilk növbədə geosiyasi vəziyyətlə bağlı əməkdaşlıq son dərəcə zəruridir.

O səbəbdən Rusiyaya səfir postuna göndəriləcək şəxs iki ölkə arasında münasibətlərin spesifikliyini nəzərə almalıdır. Yəni Rusiyada səfir olmaq asan iş deyil və başqa dövlətlərdən fərqlənir. Çünki həm Rusiyada 3 milyondan çox azərbaycanlının yaşadığını nəzərə almaq lazımdır, həm də regionda gedən proseslər fonunda Bakı-Moskva əlaqələrinin əhəmiyyəti diqqətə alınmalıdır. O baxımdan, namizədlər haqqında müzakirə aparıldığı deyilir.

Bir müddət əvvəl bu strateji posta YAP-ın seçki siyahısında olmayan deputat Elnur Allahverdiyevin adı hallanıb. Bundan başqa, Prezidentin köməkçilərindən birinin də Rusiyaya səfir göndəriləcəyi haqqda iddialar dolaşmaqdadır. Etibarlı mənbə "Yeni Müsavat"a Rusiyaya göndəriləcək şəxslər arasında Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizovun da adının hallandığını deyib.

Demokrat.az saytı bu mövzuda intriqanı artıran bir iddia haqda yazıb. Bildirilir ki, sabiq xarici işlər naziri Elmar Məmmədyarov Azərbaycanın Rusiyadakı səfiri təyin oluna bilər.

Yada salaq ki, Prezident İlham Əliyevin 2020-ci ilin iyulun 16-da imzaladığı sərəncamla Elmar Məmmədyarov ölkənin xarici siyasət idarəsinin rəhbəri vəzifəsindən uzaqlaşdırılıb. Sərəncamdan bir gün əvvəl - iyulun 15-də Nazirlər Kabinetinin iclasında Prezident İlham Əliyev E.Məmmədyarovun fəaliyyətini kəskin tənqid etmişdi. Dövlət başçısının müşavirədə E.Məmmədyarovla bağlı dediklərini bir daha yada salmaqda fayda var: "Ayın 12-də (iyundakı erməni təxribatı nəzərdə tutulur-red) hadisələr baş verəndən sonra biz iş yerindəydik. Mən xarici işlər nazirini tapa bilmədim".

Baş nazir Əli Əsədovun məruzəsində isə bəlli olmuşdu ki, Məmmədyarov evdən işləyir... Bundan əvvəl isə Dövlət Təhlükəsizlik Xidməti Xarici İşlər Nazirliyində əməliyyat keçirmiş, bir neçə nazirlik rəsmisi həbs edilmişdi...

Ola bilsin, E.Məmmədyarovun belə bir istəyi olsun, onun Rusiya hakimiyyəti, xüsusilə xarici işlər naziri Sergey Lavrovla yaxşı mümasibətləri olduğu sirr deyil. Amma onun yenidən, həm də Rusiyaya səfir kimi strateji posta qayıtması ağlabatan görünmür.

Mövzu ilə bağlı Globalinfo.az-a danışan **Elmar Məmmədyarov** xəbəri təkzib edib.

**O, belə bir təklif almadığını bildirib:** "Açığı, mənə bununla bağlı heç bir təklif gəlməyib. Təklif gələrsə, ona uyğun da addım ataram. Amma ortada heç nə yoxdur axı. Həm də artıq hörmətli Polad Bülbüloğlunu deputat seçdilər? (Gülür). Mənim Polad müəllimə böyük hörmətim var. Bizim onunla tanışlığımız hətta mən nazir olmadığım illərə təsadüf edir. O, Azərbaycan üçün istər mədəniyyət, istərsə də siyasi baxımdan yaxşı işlər görüb".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu Rusiyadakı səfir postunun Azərbaycan üçün xüsusi önəmi olduğunu bildirdi:** "Polad Bülbüloğlunun millət vəkilliyinə namizəd olması Azərbaycanın Rusiyadakı səfir postuna kimin namizədliyinin irəli sürüləcəyi barədə məsələni aktuallaşdırıb. Polad Bülbüloğlu uzun illər Moskvada çalışdı. Azərbaycan üçün onun üstünlüyü o idi ki, gənclik illərində Rusiyada yaşamışdı. Tanınmış müğənni idi. Onu yaxşı tanıyırdılar. Səfir olduğu dönəmlərdə o, yüksək səviyyədə əlaqələr qura bilmişdi. Ona görə də indi Rusiyaya elə bir şəxs səfir göndərilməlidir ki, Rusiya hakimiyyəti ilə six əlaqələr qura bilsin. İndidən hansı namizədin olacağını söyləmək çətindir. Rusiya kimi ölkəyə təcrübəli, peşəkar birisi səfir göndərilməlidir. Belə bir diplomata ehtiyac var. Bunu da bir neçə amillə izah etmək olar. İlk növbədə Azərbaycan-Rusiya əlaqələrini gücləndirmək baxımından bu vacibdir. Digər tərəfdən, bəzən dövlətlərarası münasibətlərdə suallar yaranır. Bu anda çevik olmalıdır. Erməni lobbisinin də gücü olduğu ölkələrdən biri Rusiyadır. Azərbaycan əleyhinə təbliğatlarını heç zaman dayandırmırlar. Bu istiqamətdə Rusiyadakı səfirimiz ölkəmizə qarşı təbliğatın qarşısını almağı bacarmalıdır. İndidən kimin səfir olacağını söyləmək çətin olsa da, bu posta, əlbəttə, son dərəcə peşəkar, hazırcavab və təcrübəli bir diplomatın təyin olunması çox vacibdir".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Kamala Harris sürət yığır - təfərrüat

## O, tərəddüd edən ştatları Trampdan qoparır





**ABŞ prezidentliyinə Demokratlar Partiyasından namizəd olan vitse-prezident Kamala Harris noyabrda keçiriləcək prezident seçkisinin indiki mərhələsində artıq rəqibi üzərində mühüm üstünlük əldə edib.**

O, seçimlərində tərəddüd edən ştatlarda, Amerika standartlarına görə çox təsiredici fərqlə ilk dəfə Donald Trampı qabaqlayıb. Bu, artıq noyabrda keçiriləcək prezident seçkisində qələbə üçün mühüm iddiadır. Çünki seçkinin nəticəsi mütərəddid ştatlardan, nə respublikaçıların, nə də demokratların üstünlüyü olmayan ştatlardan asılıdır. Harrisin bu üstünlüyü əldən verməyəcəyi mütləq deyil. Bununla belə, bir şey aydındır: Trampın həyatına iyul ayında edilən sui-qəsd cəhdindən sonra artan populyarlığı artıq bir yerlərdə dayanıb və bu fakt ona daha siyasi xal gətirmir. Elektoratı qazanmaq üçün Trampa yeni yollar lazımdır.

"Nyu-York Tayms" qəzetinin son sorğusu üç mütərəddid ştatda - Pensilvaniya, Miçiqan və Viskonsində Harrisin Trampın qarşısında üstünlük qazandığını göstərir. "Siena" kolleccinin avqustun 5-dən avqustun 9-dək apardığı araşdırmaya görə, oradakı seçicilərin 50%-i Harrisə səs verməyə hazırdır. Əvvəllər bu ştatlarda Cozef Bayden Trampa uduzurdu. Trampın reytinqi isə iyuldakı sorğu ilə müqayisədə dəyişməyib. Üç ştatda yalnız 46% seçici onu dəstəkləməyə hazırdır. Ştatlar üzrə götürsək, Tramp Miçiqanda 5%, Viskonsin ştatında isə 6%-ə qədər səs itirib. Pensilvaniya seçicisi, yəqin ki, qubernator Coşua Şapironun Harrisin vitse-prezidenti seçilməməsindən inciyib, ona görə də Trampla Harrisin arasında səs fərqi qadın namizədin xeyrinə cəmi 2% təşkil edir.

Sorğuya əsasən, "üçüncü namizəd" faktoru Harrisə qarşı işləmir. Müstəqil namizəd kiçik Robert Kennedinin reytinqi aşağıdır və daha da düşməkdədir. Onun populyarlığı ciddiyə alınmayacaq səviyyədədir. Kennedilər klanının son nümayəndəsi gəncliyində sürdüyü həyat tərzi ilə ABŞ seçicisi üçün "oddan törəmiş kül" statusundadır.

Bu da faktdır ki, demokrat namizədin kampaniyası əsasən Baydenin yüksək antireytinqi olması səbəbindən sürət qazanıb. Bayden namizədlikdən çəkilənə qədər Harris də ölkənin sevimli siyasətçilərindən biri deyildi. İndi bütün partiya onun ətrafında birləşdiyindən və o, demokratların rəsmi namizədi olduğundan, vitse-prezident getdikcə populyarlaşır. O, ikinci plandan ön plana çıxıb və açıqlamaları, görüşləri, davranışları ilə prezident ola biləcək potensiala malik olduğunu nümayiş etdirir. Sorğulara əsasən, Harris, ümumiyyətlə, mötədil seçiciləri iqtisadi gündəmin öhdəsindən gələcəyinə və Trampın iddia etdiyi kimi, "solçu" siyasət yürütməyəcəyinə inandırmaqda uğur qazanır.

Harrisin Nevada mitinqində verdiyi vədlərdən biri də bəxşiş ("çaypulu") vergisini ləğv etməyə çalışacağı barədə olub. Bu, ABŞ-da çox vacibdir. Ölkədə bəxşişlər iaşə işçilərinin gəlirlərinin əhəmiyyətli hissəsini təşkil edir. ABŞ-da onları vermək əxlaq norması hesab olunur və bir çox yerlərdə bu, məcburidir. Xidmət üçün ödənilən "çaypulu" bəzən hesaba avtomatik daxil edilir. Onlardan verginin ləğvi vədi orta təbəqənin daha çox qazanmasına imkan verən sağçı tədbirdir. Belə çıxır ki, "solçu fanat" (Tramp onu belə adlandırır) respublikaçıların gündəmini izləyir. Onun ideyasının Nevadada səsləndirilməsi təsadüfi deyildi: Las-Veqas bu ştatdada yerləşir və bilindiyi kimi bu şəhərdə çox sayda otel və kazinolar fəaliyyət göstərir. Tramp bu ştata çox ümid edir. Lakin onun rəqibi daha zirək tərpənib, uyğun vədi səsləndirib və bu, ştat seçicilərinin diqqətini çəkib, ona rəğbət qazandırıb.

Yeri gəlmişkən, Tramp bu ideyanın ona məxsus olduğunu bildirib, dəfələrlə səsləndirdiyini deyib və "Truth" sosial şəbəkəsində də vitse-prezidentin onun ideyasını "oğurladığını" yazıb. Tramp onu da deyib ki, Harrisin söz verdiyinə baxmayın, o, prezident seçilsə bəxşiş vergisini ləğv etməyəcək.

Əslində isə adı çəkilən vergini ləğv etmək həqiqətən çətin olacaq. Bunun üçün prezidentlə Konqres arasında fəal birgə iş lazımdır. Qanunvericilik bazasını elə tənzimləmək lazımdır ki, qanundan hedj-fond menecerləri və gəlirləri orta səviyyədən xeyli yüksək olan hüquqşünaslar yararlana bilməsin. Deməli, bəlkə də Tramp haqlıdır, Kamala Harris bəxşiş vergisini asanlıqla ləğv edə bilməyəcək. Bəs bu halda Tramp özü nə edəcək? Ona da çətin olmayacaqmı?

Son beş gün ərzində Harris və onun vitse-prezidentliyə namizədi, Minnesota qubernatoru Tim Valz beş dəfə mitinq keçirib. Cümə günü Arizonada onların mitinqinə 15 mindən çox insan toplaşıb. Əhəmiyyətli olan odur ki, Harrisin komandası vitse-prezidentin çıxışları üzərində çox yaxşı işləyir və müəyyən vəziyyətlərə çevik reaksiya verir. Tramp bu xüsusda ləng tərpənir, ona görə də cırnayır və qəzəbli açıqlamalar verir.

Harris Detroytda Fələstin tərəfdarları ilə şifahi mübahisə edib. Artıq Arizonada o, atəşkəsə və girovların İsrailə təhvil verilməsinə çağırıb. İspan seçicilər Harris haqqında getdikcə daha çox müsbət qənaətə gəlirlər.

"Nyu-York Tayms" qəzetinin yazdığına görə, Harris sonrakı sorğularda Trampı 10% qabaqlaya biləcək. Müəyyən mənada, Harrisin bir çox məsələlərə dair aydın fikirlərinin olmaması indi onun xeyrinə işləyir. O, buna görə dəfələrlə tənqid olunmuşdu. Hələlik onun tərcümeyi-halında heç bir kompromat, prinsipcə, seçicilərin ona səs verməkdən imtinasına səbəb yarada biləcək faktlar yoxdur. Bu, onu Trampdan çox fərqləndirir. Keçmiş prezidenti isə daima nələrdəsə ittiham edirlər - seks qalmaqallarından tutmuş dövlət çevrilişinə, mühüm sənədləri gizlətməyə qədər.

Bir sözlə, Tramp ABŞ seçicisi üçün kəsilmiş qarpızdır. Necə deyərlər, ona qarşı "gəlmişdi də, görmüşük" arqumenti səslənməsi effektiv ola bilər. Harris isə yenidir, onun daha uğurlu prezident olacağına inam və ümid daha bütövdür.

Onların hansının ölkəmiz üçün daha faydalı ola biləcəyi isə başqa, daha uzun söhbətin mövzusudur.

❑ **Araz ALTAYLI,**
**Musavat.com**

# Yerli istehsaldır, amma xaricdən gətirilən məhsul qiymətinədir - səbəb

## Azərbaycanda həm kərə, həm də zeytun yağının qiyməti artıb; heyvandarlıq sektorunda heyvan sayı da azalır, məhsul istehsalının artım tempi düşür, idxaldan asılılıq artır

**Azərbaycanda həm kərə yağının, həm də zeytun yağının qiyməti artıb. Qiymət artımı daha çox yerli istehsal məhsullarında özünü göstərir. Belə ki, 2024-cü ilin iyun ayında Azərbaycanda zeytun yağının 1 litrinin orta satış qiyməti 17.00 manat təşkil edib. Dövlət Statistika Komitəsinin məlumatına görə, bu, əvvəlki ilin iyun ayı ilə müqayisədə 1.40 manat və ya 9 faiz çoxdur.**

Bu dövrdə yerli istehsal olan zeytun yağının 1 litrinin qiyməti 15.98 manat təşkil edib ki, bu da illik hesabla 1.55 manat və ya 11 faiz bahadır.

Xaricdən gətirilmiş zeytun yağının 1 litri isə 18.64 manat təşkil edib. Bu da 2023-cü illə müqayisədə 1.41 manat və ya 8 faiz yüksəkdir.

Məlumat üçün bildirək ki, 2023-cü ilin iyun ayında 1 litr zeytun yağının orta qiyməti 15.60 manat təşkil edib. Yerli zeytun yağının qiyməti 14.43 manat, zeytun yağının ümumi orta qiyməti isə 17.22 manat olub.

Qeyd edək ki, son iki ildə iqlim şərtlərinə görə dünya bazarında zeytun yağının qiymətində artım olub. Belə ki, bu məhsulun əsas istehsalçısı olan İspaniyada və İtaliyada iki il ardıcıl yaşanan qızmar isti yay zeytun məhsulunu azaldıb. Bu, qiymət artımına səbəb olub. İspaniya dünya zeytun yağı istehsalının 40 faizindən çoxunu təmin edir. Bu isə İspaniyanı qiymətlər üçün qlobal istinada çevirir.

İspaniyanın Endəlüs bölgəsində sıxma zeytun yağının qiyməti yanvar ayında 1 kq üçün 9,2 avro (9,84 dollar) olmaqla rekord səviyyəyə çatıb. Sonradan mart və aprel aylarında yağan yağışlar məhsul istehsalına dair gözləntiləri müsbətə doğru dəyişib və qiymətlər bir qədər geriləyib.

Azərbaycanda əsas istehsal ərazisində - Bakı və Abşeron yarımadasında zeytun istehsalına mənfi təsir göstərəcək ciddi problemlər müşahidə olunmayıb. Son illərdə həm seytunun bağlarının sahəsi, həm də onun istehsalı sürətlə artır.

Azərbaycanda zeytun istehsalı sürətlə artır. 2021-ci ildə 1510,5 ton təşkil edən istehsal 2022-ci ildə ikiqat artaraq 3171,7 tona çatıb ki, bunun da 2168 tonu Bakı şəhərinin payına düşür.

2018-2022-ci illərdə zeytun bağlarının sahəsi 3888,5 hektardan 6726,4 hektara qədər artıb.

Keçən il ölkədən xaricə ümumilikdə 578.74 ton və ya 3 milyon 157.3 min dollarlıq zeytun yağı ixrac edilib. Zeytun yağının 186.6 tonu və ya 950.9 min dollarlığı Türkiyəyə, 66.6 min tonu və ya 348.9 min dollarlığı Birləşmiş Ərəb Əmirliklərinə ixrac edilib.

Qeyd edək ki, 2023-cü ildə Azərbaycanda 1 160 ton zeytun yağı istehsal edilib.

Bu ilin yanvar-mayında saflaşdırılmamış, əla növ birinci sıxma zeytun yağı idxalı 340 min dollar dəyərlə 40,91 ton, ixrac 2063,68 min dollar dəyərlə 325,78 ton, saflaşdırılmamış, birinci sıxma zeytun yağı idxalı 165,48 min dollar dəyərlə 52,15 ton olub. Bu məhsul üzrə ixrac yoxdur, idxal olunan isə demək olar ki, bütünlüklə Türkiyədən alınıb. Saflaşdırılmamış, əla növ birinci sıxma zeytun yağının 82,21 tonu (637,27 min dollar) Rusiyaya, 44 tonu (238,92 min dollar) Birləşmiş Ərəb Əmirliklərinə, 110 tonu (674,1 min dollar) İspaniyaya, 44 tonu (222,2 min dollar) İsrailə, 38,51 tonu (232,26 min dollar)Türkiyəyə ixrac edilib.

Ötən ilin eyni dövründə saflaşdırılmamış, əla növ birinci sıxma zeytun yağı ixracı 282,15 min dollar dəyərlə 62,7 ton, idxalı isə 191,76 min dollar dəyərlə 27,34 ton təşkil etmişdi. Bundan əlavə, həmin dövrdə 185,55 min dollar dəyərində 36,04 ton saflaşdırılmamış, birinci sıxma zeytun yağı idxal edilib.

Beləliklə, 2023-cü ilin yanvar-iyununda saflaşdırılmamış, əla növ birinci sıxma zeytun yağının 1 tonunun idxalı 7014 dollara, ixracı 4500 dollara, bu ilin eyni dövründə isə idxalı 8311 dollara, ixracı isə 6334,6 dollara rəsmiləşdirilib.

2024-cü ilin birinci yarımilində Azərbaycan təkcə Türkiyədən 1 milyon 398 min ABŞ dolları dəyərində zeytun və zeytun yağı alıb. Türkiyə İxracatçılar Məclisinin yaydığı məlumata görə, bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 38 min ABŞ dolları və ya 2,7 faiz azdır.

Ötən ilin yanvar-iyun aylarında Azərbaycan Türkiyədən 1 milyon 436 min ABŞ dolları dəyərində zeytun və zeytun yağı almışdı.

Göründüyü kimi, ölkədəki daxili qiymətlər ixrac qiymətindən kifayət qədər yüksək olsa da, nədənsə zeytun yağı istehsalçıları onu daxili bazarda satmaqdansa, xaricə ixrac etməyə üstünlük verirlər.

Bəzi hesablamalara görə, Azərbaycanda zeytun bağlarının sahəsini 150 min hektara çatdırmaqla, ildə 1 milyard dollarlıq zeytun yağı ixracına nail olmaq mümkündür. Artıq Azərbaycan beynəlxalq səviyyədə zeytun istehsalçısı kimi qəbul edilməyə başlanıb. Bu il Azərbaycan zeytun yağı və süfrəlik zeytun istehsal və istehlak edən ölkələri bir araya gətirən və BMT-nin himayəsi altında fəaliyyət göstərən Beynəlxalq Zeytun Şurasına (İnternational Olive Council - IOC) üzv qəbul edilib. 1959-cu ildə yaradılan IOC-un üzvləri sırasına Albaniya, Argentina, Azərbaycan, Avropa İttifaqı ölkələri, Əlcəzair, Bosniya və Herseqovina, Misir, Gürcüstan, İran, İsrail, İordaniya, Livan, Liviya, Monteneqro, Mərakeş, Fələstin, Səudiyyə Ərəbistanı, Tunis, Türkiyə, Uruqvay və Özbəkistan daxildir.

Şuranın fəaliyyətinə tədqiqat, təlim və texnologiya transferi üzrə beynəlxalq texniki əməkdaşlığın təşviq edilməsi, ticarət standartlarının inkişaf etdirilməsi, məhsulun keyfiyyətini artırmaqla zeytun yağı və süfrə zeytununun payının beynəlxalq ticarətdə artırılması, özəl sektorla sıx əməkdaşlıq etmək üçün hökumət nümayəndələri və ekspertlər arasında görüşlərin keçirilməsi və s. daxildir.

Onu da qeyd edək ki, qlobal bazarlarda iyun-iyul aylarında qeydə alınan bitki yağı qiymətlərindkiuə artım əsasən palma, soya, günəbaxan və kolza yağlarının kotirovkalarının yüksəlməsindən qaynaqlanıb. Bu barədə BMT Kənd Təsərrüfatı və Ərzaq Təşkilatı (FAO) məlumat yayıb. Azərbaycanda duru bitki yağları ilə özünütəminat səviyyəsi 2022-ci ildə 66,7 faizə bərabər olub. Özünü bir məhsulla tam təmin edə bilməyən ölkənin həmin məhsulun ixracını artırması da normal məntiqə uyğun gəlməyən prosesdir.

Nəhayət, onu da bildirək ki, Azərbaycanda zeytun yağı istehsalına dair rəsmi rəqəmləri əksəriyyət mütəxəssislər mötəbər hesab etmirlər: kiçik sexlərdə, fərdi şəxslər tərəfindən soyuq sıxma üsulu ilə istehsal olunan tonlarla yağ hər hansı uçota alınmadan satılır...



Kərə yağına gəlincə, Azərbaycanın bu məhsulla özünütəminat səviyyəsi 62 faizdir. Buna görə də daxildəki qiymətlər qlobal bazardan xeyli dərəcədə asılıdır. Avqust ayının əvvəlindən Azərbaycanın pərakəndə satış məntəqələrində kərə yağı qiymətləri 10 faizdən çox artıb. Qlobal bazarlarda kərə yağının bahalaşması müşahidə olunur. Belə ki, iyul ayında FAO Süd Məhsullarının Qiymətləri İndeksinin orta dəyəri iyun ayı ilə müqayisədə faktiki olaraq dəyişməyərək 127,7 bənd təşkil edib və ötən ilin müvafiq göstəricisindən 8,6 bənd (7,2 faiz) yüksək olub. Ay ərzində kərə yağı və pendirin qiymət indekslərində artım qeydə alınır. Bu artımın son 10 ayda davam etdiyi bildirilir. Burada əsas rolu yüksək daxili tələb fonunda Qərbi Avropada ixrac təklifinin azalması oynayır.

Dünya bazarındakı bahalaşma ölkəyə idxal olunan kərə yağının gömrük dəyərində də hiss olunur. Belə ki, Dövlət Gömrük Komitəsinin məlumatına görə, 2024-cü ilin ilk birinci yarısında Azərbaycana bir tonu orta hesabla 5 min 259 dollara olmaqla 71 milyon 44 min dollar dəyərində 13 min 509 ton kərə yağı və süddən hazırlanmış digər yağlar idxal olunub. 2023-cü ilin eyni dövründə Azərbaycana 47 milyon 19 min dollar dəyərində 8 min 501 ton kərə yağı və süddən hazırlanmış digər yağlar idxal olunmuşdu (tonu orta hesabla 5 min 531 dollardan ).

Beləliklə, kərə yağı idxalı 2024-cü ilin yanvar-iyununda 2023-cü ilin eyni dövrü ilə müqayisədə dəyər ifadəsində 24 milyon 25 min dollar və ya 51 faiz, miqdar ifadəsində 3 min 493 ton və ya 41 faiz artıb.

Bundan əlavə, 2024-cü ilin ilk 6 ayı ərzində Azərbaycana 95 milyon 796 min dollar dəyərində 80 min 681 ton bitki və heyvan mənşəli yağlar idxal olunub (1 tonu orta hesabla 1187 dollardan). Ötən ilin eyni dövründə 89 milyon 16 min dollar dəyərində 65 min 424 ton bitki və heyvan mənşəli yağlar idxal olunmuşdu (tonu orta hesabla 1360 dollardan).

Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2024-cü ilin birinci yarısında Azərbaycanda 13872,7 ton kərə yağı istehsal edilib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 2,7 faiz artım deməkdir. İyulun 1-nə anbarlarda 49,2 ton kərə yağı ehtiyatı olub.

Son illərdə heyvandarlığın bitkiçiliyin genişləndirilməsi hesabına tənəzzülə uğradılmasının mənfi təsirləri artıq hiss olunmaqdadır: heyvandarlıq sektorunda heyvan sayı da azalır, məhsul istehsalının artım tempi düşür, idxaldan asılılıq artır. Bu isə hökumət üçün kifayət qədər ciddi çağırışlar formalaşdırır...

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**



# "Poqonlu dəstə"dən həbslər davam edəcək - faktlar

## "Otkat"a görə qandallanma sırası Nəcməddin Sadıkova da çata bilər

**Müdafiə Nazirliyinin Mənzil İstismar İdarəsinin sabiq rəisi, polkovnik Elmar Məmmədov həbs edilib. Bu barədə KİV-in sorğusuna cavab olaraq hərbi prokurorun böyük köməkçisi - Hərbi Prokurorluğun mətbuat xidmətinin rəhbəri, baş ədliyyə müşaviri Firad Əliyev deyib. Qeyd edək ki, müvafiq əməlləri törətməsinə əsaslı şübhələr olan Müdafiə Nazirliyinin Mənzil-İstismar İdarəsinin sabiq rəisi, polkovnik Məmmədov Elmar Heybətqulu oğluna Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 179.4-cü, 311.3.1-ci, 341.2.3-cü və digər maddələri ilə ittiham elan edilib, Azərbaycan Respublikası Hərbi Prokurorluğunun təqdimatına əsasən, Bakı Hərbi Məhkəməsinin qərarı ilə barəsində həbs-qətimkan tədbiri seçilib.**

Yada salaq ki, bir neçə gün əvvəl Müdafiə Nazirliyinin Mənzil-İstismar İdarəsinin Əsaslı və Cari Təmir Bölməsinin sabiq müdiri Rəhim Laçınov həbs edilib. Ona qarşı da Cinayət Məcəlləsinin 179.4-cü və 32.5, 341.2.3-cü maddələri ilə ittiham elan edilib.

"Yeni Müsavat" xəbər verir ki, Rəhim Laçınov təmir bölməsində 2016-cı ildən rəis işləyib. Onun birbaşa rəisi Müdafiə Nazirliyinin Mənzil İstismar İdarəsinin rəhbəri, polkovnik Fikrət Mirzəyev isə iki il əvvəl həbs edilmişdi. Həmin vaxt Müdafiə Nazirliyinin Maliyyə və Büdcə İdarəsinin sabiq rəisi general-mayor Nizami Məmmədov, Hərbi Hava Qüvvələrinin (HHQ) Maliyyə Xidmətinin sabiq rəisi, polkovnik Cəlal Kazımov, Quru Qoşunların maliyyə idarəsinin rəisi Bayram Bayramov, Hərbi Dəniz Qüvvələrinin Maliyyə xidmətinin sabiq rəisi Vüsal Əlizadə, Müdafiə Nazirlinin Satınalmalar və Təchizat İdarəsinin sabiq rəisi, polkovnik Mahir Şirvanov, həmçinin nazirliyin Satınalmalar və Təchizat İdarəsinin sabiq rəisi Məlikməmməd Qurbanov da Dövlət Təhlükəsizliyi Xidmətinin keçirdiyi xüsusi əməliyyat nəticəsində həbs edilmişdilər.

Cinayət işi üzrə ümumilikdə dövlətə dəymiş ziyan 143 milyon manatdır. Cinayət işləri ayrı-ayrı icraatlarda baxılması üçün məhkəməyə göndərilib. İstintaq dövründə dövlətə vurulmuş ümumi ziyanın 40 milyon manatı ödənilib.Cinayət işi üzrə Maliyyə Nazirliyi zərərçəkmiş qismində tanınıb. Təqsirləndirilən şəxslərin hər birinə Cinayət Məcəlləsinin 179.4-cü (xüsusilə külli miqdarda ziyan vurmaqla dələduzluq törətmək) maddəsi ilə ittiham irəli sürülüb.

İndiyədək keçirilmiş məhkəmə proseslərində MN üçün ayrılan məbləğin "otkat" şəklində mənimsənildiyi haqda faktlar üzə çıxıb. Bildirilib ki, bu qaydanı Baş Qərargah rəisi olmuş Nəcməddin Sadıkov tələb kimi qoyubmuş. İndi əsas diqqətlər sıradakı şəxsin Nəcməddin Sadıkov ola biləcəyi haqda iddialardır.

**"Bakı" Hüquq Şirkətinin rəhbəri Natiq Ələsgərov** "Yeni Müsavat"a deyib ki, Nəcməddin Sadıkov 1993-cü ildən 2020-ci il Vətən müharibəsinin ilk ongünlüyünə qədər Müdafiə Nazirliyinin Baş Qərargah rəisi vəzifəsini daşıyıb: "İllərlə mətbuatda Nəcməddin Sadıkovun tutduğu postdan öz şəxsi maraqları üçün sui-istifadə etməsinə dair çoxsaylı faktlar yazılıb. Onun Vətən müharibəsi ərəfəsində, Vətən müharibəsi günlərindəki fəaliyyəti də çox ciddi şübhələr doğurub. Yeni siyasi qərar verilərsə, Nəcməddin Sadıkovun həbsi üçün yetirincə əsaslar var. O, ətrafına yığdığı kadrların köməyi ilə Müdafiə Nazirliyi sistemində rüşvət və korrupsiya bataqlığı yaradıb. Sonuncu həbs olunan Müdafiə Nazirliyinin Mənzil İstismar İdarəsinin sabiq rəisi, polkovnik Elmar Məmmədov da həmin kadrlardan biridir. Ondan əvvəl tutulan Müdafiə Nazirliyinin Daxili Təhlükəsizlik, həmçinin Təhsil-Tədris və Elmi Tədqiqatlar İdarəsinin sabiq baş zabiti Zahid Niftəliyev buna bariz nümunədir. Zahid Niftəliyevin məhkəmə işindən belə məlum oldu ki, Müdafiə Nazirliyinin vəzifəli şəxsləri ilə əlbir olaraq həm müddətli hərbi qulluqçuların, həm də zabit-gizir heyətinə daxil olan hərbi qulluqçuların xidməti yerlərinin pul müqabilində dəyişdirilməsini təmin edib. Qadın hərbi qulluqçuların isə qanunsuz yolla xidmətə qəbul edilmələrini təşkil edib. O, həmçinin qanunsuz sahibkarlıqla da məşğul olub. Nəcməddin Sadıqovun ən yaxın adamı Zahid Niftəliyev dələduzluq və vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərməyə təhrik etmədə ittiham (Cinayət Məcəlləsi, maddə 178.2.1, 178.2.2, 178.2.3, 178.2.4, 32.4 312.2) olunur. Lakin ibtidai istintaqın gedişində onun barəsindəki ittihamın daha ağır maddələrə tövsif olunma ehtimalı var. Yəni Nəcməddin Sadıqovun ətrafı bu xislətdə olan kadrlardır. Ətrafını isə onun özü formalaşdırıb. Xatırlayırsızsa, Vətən müharibəsinin ilk günlərində, 2020-ci il oktyabrın 4-də mətbuatda Azərbaycan Ordusunun rəhbərliyi döyüş tapşırıqlarının icrasını planlaşdırması və təşkil etməsi haqda xəbər yayıldı. Həmin xəbərə əlavə olunan fotolardan birində Nəcməddin Sadıqov gözlərini obyektivə zilləmiş şəkildə tuş gəlmişdi. Oktyabrın 10-da isə Nəcməddin Sadıkov barəsində olan və Müdafiə Nazirliyinin saytında yer alan məlumat bölümü yoxa çıxdı. Əslində həmin gündən Nəcməddin Sadıkovun həbsi gündəmdədir. Bunu özü də bilir. Çünki onun neqativ, daha çox düşmənə sərf edən fəaliyyəti ən təvazökar araşdırma ilə cinayət işinin materialı ola bilər. Nəcməddin Sadıkov vəzifədə olduğu illərdə Azərbaycan dilini bilməməsi, biabırçı şəkildə danışması daim tənqid olunub. Onun tikinti biznesi, beton zavodu və digər biznes seqmentlərində payının olması haqda xəbərlər var. Nəcməddin Sadıkovun Rusiya ilə əlaqələri, Rusiya ərazisində yerləşən Şeyx Şamil adına fondun onu "Milli Qəhrəman" adına layiq görməsi, Dərbənddə adına küçənin olması Baş Qərargah rəisi vəzifəsində olduğu müddətdə daha çox şimal qonşumuza xidmət etməsi kimi qəbul olunub. Onun NATO tədbirlərindən birində Ermənistan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi olmuş general-polkovnik Mikael Arutyunyanla olduqca səmimi fotosu da diqqət çəkib. 2017-ci ildə Nəcməddin Sadıkovun Mikael Arutyunyanla görüşü birmənalı qarşılanmamışdı. Bu həmin Arutyunyandır ki, Birinci Qarabağ müharibəsi dövründə azərbaycanlılara qarşı xüsusi qəddarlığı ilə seçilib. Belə bir keçmişə malik düşmən generalı ilə Nəcməddin Sadıkovun xoş ünsiyyəti haradan qaynaqlanır? Digər bir diqqətçəkən məqam da Nəcməddin Sadıkovun yerli mətbuatın tənqidinə məruz qaldığı illərdə onu daha çox yerli rusdilli medianın, Ramiz Mehdiyevin ruporlarından hesab edilən mətbuatın müdafiə etməsi olub. Nəcməddin Sadıkovun Birinci Qarabağ savaşı dövründə Rusiyadan Azərbaycana gəlməsini xüsusilə qeyd edən həmin media bu faktı onun Rusiyaya bağlılığını təkzib edən məqam kimi təqdim edirdi. Yəni Sadıkov Rusiyadan vətənpərvərlik nümunəsi göstərərək Azərbaycana gəlib, Qarabağ savaşına qatılıb və belə bir şəxs Rusiyanın maraqlarından çıxış edə bilməz. Əslində isə bu, gülünc bir əsas hesab edilə bilər. Sadıkov o dövrdə ölkəyə qayıdan vətənpərvər zabitlərin sırasına qatılıb gəlsə də, onun Kəlbəcərin verilməsində müstəsna rolu olması da uzun illər müzakirə mövzusu olub. Bu və bir cür çoxsaylı suallar var ki, bu gün də cavablandırılmayıb".

❑ **Elşən MƏMMƏDƏLİYEV,**
**Musavat.com**

# Hüseyn Abdullayevdən son xəbər - məhkəməsini gözləyir



**Həbsdə olan sabiq deputat Hüseyn Abdullayevin infarkt keçirməsi xəbəri yayılıb. Ədliyyə Nazirliyi sabiq deputat Hüseyn Abdullayevin səhhəti ilə bağlı məlumat yayıb. Bildirilib ki, o, 2024-cü il avqustun 2-də Hüseyn Abdullayev ürək nahiyəsində olan narahatlıqla bağlı Bakı İstintaq Təcridxanasının (BİT) tibbi sanitariya hissəsinə müraciət edib: "Həkim-kardioloq tərəfindən müayinə aparılıb, həmçinin ürəyin elektrokardioqrafiyası, daha sonra isə exokardioqrafiyası müayinəsi nəticələrinə əsasən miokard infarkt keçirməsi təsdiqlənməyib. Hüseyn Abdullayevin səhhəti həkim nəzarətindədir".**

Qeyd edək ki, Hüseyn Abdullayev 2018-ci ildə 6 il müddətinə azadlıqdan məhrum edilmişdi. Bu ilin aprelində onun cəzası başa çatsa da, azadlığa buraxılmadı. Barəsində yeni cinayət işi başlandığına görə onu istintaq təcridxanasına köçürüblər. Ona qarşı cinayət yolu ilə əldə edilmiş pulların leqallaşdırılması (Cinayət Məcəlləsinin 193-1.3.2-ci maddəsi) ittihamı irəli sürülüb. Yeni ittihama görə, Hüseyn Abdullayev 2006-2014-cü illər arasındakı dövrdə 6 milyon manat vəsaitin yuyulmasında ittiham olunur, bir halda ki, istintaq artıq onun 2000-2018-ci ildəki fəaliyyətini araşdırıb. Yeni ittiham ilə Abdullayevi 7 ildən 12 ilədək azadlıqdan məhrumetmə cəzası gözləyir.

Hüseyn Abdullayevə yeni ittiham edilən ediləndən sonra vəkili Ceyhun Yusifov Bakı Apelyasiya Məhkəməsinə müraciət etmişdi. Demişdi ki, müvəkkili haqda 2 aydır həbs-qətimkan tədbiri seçilib, lakin heç bir istintaq hərəkəti aparılmır. Bu səbəbdən istintaq orqanının hərəkətsizliyindən məhkəməyə şikayət ərizəsi verilib: "Hüseyn Abdullayevlə bağlı heç bir istintaq hərəkəti aparılmır. Belə olan halda həbsdə qalması da mənasızdır. Bu səbəbdən Binəqədi Rayon Məhkəməsinə şikayət verdik. Lakin məhkəmə şikayətimizi təmin etmədi. Hazırda həmin qərardan apelyasiya şikayəti vermişik".

Məhkəmə şikayəti təmin etməyib.

Hüseyn Abdullayev 1990-cı illərdə neft və neft məhsulları üzrə biznes sahəsində qabaqcıl mövqelər tutub. O, hazırkı iqtidarın tərəfdarlarından olub və onun yerli mediada müxalifətin etirazlarına qarşı sərt mövqe tutduğu barədə məlumatlar yayılıb. 2005-ci ildə Abdullayev parlamentin deputatı kimi fəaliyyətə başlayıb və Nazirlər Kabinetinin fəaliyyətini tənqid edib. 2007-ci ilin martında parlamentin plenar iclasında deputat Fəzail Ağamalı ilə Abdullayev arasında yumruqlaşma olub. Bundan sonra Abdullayev cəzalandırılıb. O, əvvəlcə həbs edilib, sonra xuliqanlığa görə 2 il müddətinə şərti azadlıqdan məhrumetmə cəzasına məhkum edilib. 2013-cü ildə Abdullayev Azərbaycandan mühacirət edib. Bundan sonra ona qarşı vergi ittihamı ilə cinayət işi açılıb. Keçmiş deputat 2018-ci il aprelin 22-də Türkiyədə saxlanılıb və Azərbaycana ekstradisiya edilib. Hüseyn Abdullayev Bakıda Cinayət Məcəlləsinin 192.2.2 (böyük gəlir əldə etməklə qanunsuz sahibkarlıq), 178.2.1, 178.2.2, 178.2.4 (fırıldaqçılıq), 182.2.1 (əvvəlcədən əlbir olmuş şəxslər tərəfindən hədələmə yolu ilə pul tələb etmə), 182.2.2 (eyni əməllər təkrar törədildikdə) və 182.2.4-cü (eyni əməllər, zərərçəkmişə böyük ziyan vurmaqla törədildikdə) maddələri ilə ittiham edilərək 6 il müddətinə azadlıqdan məhrum edilmişdi.

❑ **Elşən MƏMMƏDƏLİYEV,**
**Musavat.com**

# İmtahanların yekunu: 600 bal toplayanlar üçün sevinək, bəs niyə...

## İlqar Orucov: "Təhsilin uğurları təkcə imtahanın nəticələrindəki göstəricilərlə ölçülmür, buna görə..."

**Azərbaycanda bu il qəbul imtahanlarında 600 və daha çox bal toplayan abituriyentlərin sayı artıb. Ən çox artım I və III ixtisas qruplarında qeydə alınıb. Belə ki, ötən il 1494 abituriyent 600-dən yuxarı bal toplayıb, 2024-cü ildə isə bu say 3228 nəfər olub. Yəni 2023-cü ildə 600 və daha çox bal toplayanların sayı 2 dəfədən çox artıb.**

Yüksək bal toplayanların qruplar üzrə paylanmasına gəlincə, 2023-cü illə müqayisədə I qrupda 600 və daha çox bal toplayanların sayı 576 nəfər, bu il isə 1343 nəfər olub. Yəni I qrupda yüksək bal toplayanların sayı 133 faiz artıb.

II ixtisas qrupunda yüksək bal toplayanların sayında isə azalma müşahidə olunub. Ötən il bu qrupda 600 və yuxarı bal toplayanlar 371, bu il 284 nəfər olub.

III qrupda ötən illə müqayisədə artım 160 faizdən çox olub. Qeyd edək ki, bu il keçirilən qəbul imtahanlarında III ixtisas qrupunda 600 və yuxarı bal toplayanların sayı 987 nəfərdir.

IV qrupda 2023-cü ildə 379 nəfər, bu il isə 614 nəfər 600 və daha çox bal toplayıb.

**Təhsil eksperti Kamran Əsədov ötən illə müqayisə edərək builki nəticələr barədə bunları deyib:** "1-ci qruplar üzrə RK alt qrupunda keçən il 600 bal toplayan 242 nəfər var idisə, bu il 504 nəfər olub.

1-ci qruplar üzrə RK alt qrupunda keçən il 500 bal toplayan 1310 nəfər var idisə, bu il 2432 nəfər olub. 2-ci qruplar üzrə keçən il 600 bal toplayan 156 nəfər var idisə, bu il 271 nəfər olub. 2-ci qruplar üzrə keçən il 300 bal toplayan 3600 nəfər var idisə, bu il 4600 nəfər olub. 3-cü qruplar üzrə TC alt qrupunda keçən il 500+ toplayan 97 nəfər var idisə, bu il 213 nəfər olub. 4-cü qruplar üzrə keçən il 600+ toplayan 344 nəfər var idisə, bu il 574 nəfər olub. 4-cü qruplar üzrə keçən il 500+ toplayan 1071 nəfər var idisə, bu il 1439 nəfər olub".



**Ekspert hesab edir ki, bu il nəticələr uğurlu olsa da, bəzi çatışmazlıqlar var:** "Dövrün tələbinə uyğun olaraq 32 ildir tətbiq edilən qəbul imtahanlarının formatında dəyişiklik edilməlidir. Mart ayında imtahan verən şagird, azı 6 ay sonra, avqustun sonunda yalnız tələbə adını qazanıb-qazanmadığını öyrənir. Fikrimcə, Azərbaycanda mövcud imtahan modelinin dəyişməsinin vaxtı çatıb. Qəbul imtahanlarının formatının dəyişdirilməsi təhsil sisteminin inkişafı və tələbələrin daha ədalətli qiymətləndirilməsi üçün vacibdir. Məhz bu baxımdan imtahanlar iştirakçıların yalnız nəzəri biliklərini deyil, həm də kritik düşünmə, problem həll etmə və analitik bacarıqlarını yoxlamalıdır. Bu, tələbələrin gələcəkdə daha uğurlu olmasına kömək edə bilər. İmtahan formatına layihə əsaslı tapşırıqlar, yazılı esse və müzakirə sualları daxil edilməlidir. Bu, tələbələrin praktiki bilik və bacarıqlarını yoxlamağa imkan verər. Onlayn imtahanlar və interaktiv testlər imtahan prosesini daha çevik və əlçatan edə bilər. Bu həm də tələbələrin texnologiya bacarıqlarını inkişaf etdirməyə kömək edər. Tələbələrin yalnız bir imtahanla qiymətləndirilməsi yerinə, il boyu davam edən qiymətləndirmələr, portfoliolar və müəllim rəyləri də nəzərə alınmalıdır. Bu, tələbələrin ümumi inkişafını daha ədalətli şəkildə əks etdirə bilər".

**Təhsil üzrə mütəxəssis İlqar Orucov mövzu ilə bağlı "Yeni Müsavat"a deyib ki, bu il şagirdlərin nəticələri əvvəlki illərlə müqayisədə uğurlu olub**: "Bununla belə, təhsilin uğurları təkcə imtahanın nəticələrindəki göstəricilərlə ölçülmür. İlk olaraq qeyd edim ki, bir neçə il öncəki nəticələrlə bağlı bir narahatlıq var idi. Nəticələrin zəif olması onunla bağlı idi ki, pandemiyanın təhsilə ciddi təsirləri var idi. Artıq pandemiya dövrünün təsirlərindən irəli gələn mənfi hallar aradan qaldırılıb. Builki buraxılış və qəbul imtahanlarının nəticələrindən söhbət gedirsə, Azərbaycan şagirdlərinin nəticələri kifayət qədər yüksəkdir. Yalnız builki qəbul imtahanlarının nəticələrinə baxmamalıyıq, beynəlxalq fənn olimpiadalarında hər il şagirdlərimizin uğurlu nəticələrini danmamalıyıq. Beynəlxalq imtahanlarda iştirak edərək uğur qazanan minlərlə gəncimiz var. Onlar beynəlxalq imtahanların nəticələrinə əsasən xarici universitetlərə qəbul alırlar. Əslində bu qəbullar zamanı DİM imtahanları nəzərə alınmır. Amma biz bunu bəzən görməzdən gəlirik. Minlərlə şagirdimiz dünyanın ən nüfuzlu ali məktəblərində təhsil alır. Olimpiadada yer qazananlar, beynəlxalq imtahanlarda yüksək nəticə göstərənləri xüsusi qeyd etmək lazımdır".

❑ **Afaq MİRAYİQ, "Yeni Müsavat"**



# Kimlər universitetə imtahansız qəbul olur? - siyahı

**Avqustun 9-u Azərbaycanda ixtisas seçimi başlayıb. Proses 10 gün davam edəcək və avqustun 19-da başa çatacaq. Bir çox abituriyentlər artıq ixtisas seçimini edib.**

Əvvəlki illərdə olduğu kimi, bu il bəzi məzunlar universitetlərə müsabiqədənkənar qəbul ediləcək.

Universitetlərə müsabiqədənkənar qəbul olmaq istəyənlər üçün sənəd qəbulu iyulun 10-dan başlayıb.

Bəs kimlər universitetə müsabiqənkənar qəbul olunur?

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 20 may tarixli 229 nömrəli Qərarına uyğun olaraq, beynəlxalq və respublika fənn olimpiadalarının, beynəlxalq müsabiqələrin və yarışların qalibləri ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olunurlar.

Beynəlxalq və respublika fənn olimpiadalarının, beynəlxalq müsabiqələrin və yarışların qalibləri dedikdə, aşağıdakı şəxslər nəzərdə tutulur:

- beynəlxalq fənn olimpiadasının qızıl, gümüş və ya bürünc medalı ilə təltif olunmuş şəxslər;

- IX-XI sinif şagirdləri arasında keçirilən respublika fənn olimpiadasında birinci, ikinci və üçüncü yeri tutmuş şəxslər;

- beynəlxalq müsabiqənin və ya yarışın (15 yaşdan yuxarı yaş qrupunda) laureatı olmuş (ali mükafat, birinci, ikinci və üçüncü yerlər) şəxslər.

Beynəlxalq və respublika fənn olimpiadasının qalibinin tam orta təhsil səviyyəsini bitirdikdən sonrakı növbəti iki tədris ili üçün, beynəlxalq müsabiqənin və ya yarışın qalibi isə tam orta təhsil səviyyəsini bitirməklə qalibiyyət əldə etdikdən sonrakı növbəti beş tədris ili üçün ali təhsil müəssisəsinə tələbə qəbulunda yalnız bir dəfə müsabiqədənkənar qəbul olunmaq hüququ var.

Beynəlxalq səviyyədə akkreditasiya olunan təhsil proqramları dedikdə, aşağıdakı proqramlar nəzərdə tutulur:

- Beynəlxalq Bakalavriat Diplom Proqramı (IB Diploma Programme);

- Təhsil haqqında ümumi sertifikatın yüksək səviyyəsi (Advanced Level of General Certificate of Education);

- Yüksək yerləşdirmə (Advanced Placement).

Ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul üçün minimal bal (və ya qiymət) tələbləri təhsil proqramları üzrə aşağıda təqdim olunub:

- Beynəlxalq Bakalavriat Diplom Proqramı; - Ödənişli əsaslarla qəbul üçün - 25 ("Hüquqşünaslıq" və "Tibb" ixtisasları üzrə - 30)

- Dövlət sifarişi əsasında qəbul üçün - 35;

- Təhsil haqqında ümumi sertifikatın yüksək səviyyəsi (müvafiq üç imtahan fənni üzrə);

- Ödənişli əsaslarla qəbul üçün - C;

- Dövlət sifarişi əsasında qəbul üçün - B;

- Yüksək yerləşdirmə (müvafiq üç imtahan fənni üzrə).

- Ödənişli əsaslarla qəbul üçün - 3;

- Dövlət sifarişi əsasında qəbul üçün - 4.

"Müvafiq üç imtahan fənni" dedikdə I ixtisas qrupu üzrə riyaziyyat, fizika və kimya fənləri, II ixtisas qrupu üzrə riyaziyyat, coğrafiya və tarix fənləri, III ixtisas qrupu (DT altqrupu) üzrə Azərbaycan dili və ya rus dili, tarix və ədəbiyyat fənləri, III ixtisas qrupu (TC altqrupu) üzrə Azərbaycan dili və ya rus dili, tarix və coğrafiya fənləri, IV ixtisas qrupu üzrə isə biologiya, kimya və fizika fənləri nəzərdə tutulur./Yenisabah.az

YENİ MÜSAVAT
N 142 (8515) 13 avqust 2024




## Xankəndidə ermənilərdən qalan silahlar tapıldı

**Müharibə qalıqları, təhlükə mənbələrinin aşkarlanıb zərərsizləşdirilməsi prosesi fasiləsiz davam edirilir. Bölgənin silah-sursatlardan, partlayıcı maddələrdən təmizlənməsi işi xidmətə cəlb edilən daxili işlər orqanları əməkdaşlarının əsas fəaliyyət istiqamətlərindən biridir.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən Musavat.com-a verilən məlumata görə, həyata keçirilən tədbirlərlə ötən həftə polis əməkdaşları tərəfindən Xankəndi şəhəri ərazisindən 38 avtomat silahı, 2 pulemyot, 9 tapança, 14 tüfəng, 69 qumbara, 1 qumbaraatan, 61 alışdırıcı, 1 mərmi, 10 mina, 11 kiloqram barıt, 9 gecəgörmə cihazı, 31 süngü-bıçaq, 26 rabitə vasitəsi, 197 patron darağı, 19986 ədəd müxtəlif çaplı patron və digər sursatlar, Xocavənd rayonu ərazisindən 4 avtomat silahı, Füzuli rayonu ərazisindən 2 avtomat silahı, 1 qumbaraatan, 3 pulemyot, 4 mərmi partlayıcısı, 1050 ədəd müxtəlif çaplı patron, Xocalı rayonu ərazisindən 6 avtomat silahı, 1 tapança, 2 tüfəng, 7 qumbara, 5 alışdırıcı, 160 ədəd müxtəlif çaplı patron aşkar edilərək götürülüb.

# Rusiya Federasiyası ərazisindəki döyüşlərin coğrafiyası genişlənir



**Ukraynanın hücumu nəticəsində Kursk vilayətinin getdikcə daha çox rayonları hərbi əməliyyatların səhnəsinə çevrilir.**

Musavat.com xarici agentliklərə istinadən xəbər verir ki, Suca şəhərinin Ukrayna Silahlı Qüvvələri tərəfindən ələ keçirildiyi rusların özləri tərəfindən təsdiqlənir. Ukrayna Silahlı Qüvvələri Belovski rayonunda da peyda olub: yerli sakinlər burada Ukraynanın zirehli texnikasını lentə alıblar. Bir gün əvvəl onları qonşu Borkada görüblər.

Analitiklərin fikrincə, ukraynalılar Belovski rayonu ilə qonşu olan Belqorod vilayətinə tam daxil olmağa çalışırlar. Ukrayna Silahlı Qüvvələri Kolotilovka sərhəd məntəqəsinə hücum edib. Bölgə rəhbəri Krasnoyaruzski rayonunun sakinlərinin təxliyəsi barədə məlumat verib. Qeyd edək ki, müharibədən əvvəl burada 14 min insan yaşayırdı.

Dövlət kanalları baş verənləri sadəcə "təxribat" və "vəziyyət" adlandırıblar.

Yalnız Birinci Kanal-da "müdaxilə" sözü işlədilib. "Rossiya-1" kanalının "Həftənin xəbərləri"ndə Ukrayna Silahlı Qüvvələrinin hücumu ilə bağlı "Rusiya Federasiyası ərazisindəki vəziyyət", ya da "Kurska hücum" kimi ifadə olunub. Vladimir Solovyov tok-şousunda "görünməmiş eskalasiya" ifadəsi işlədilib.

Rusiya analitikləri isə yerli hakimiyyətə qəzəblidir. Hərbi müxbir Sladkov istehkamların və mina sahələrinin təchiz olunmadığını, onlara ayrılan pulun oğurlandığını bildirib.

Dövlət Dumasının Müdafiə Komitəsinin üzvü Andrey Qurulev isə sərhədçilərin hətta kəşfiyyat vasitələri olmadığını yazıb. "Heç kim hesabatlarda həqiqəti bəyənmir. Biz verilən bütün direktivlərə və hesabatlara baxmalıyıq. Heç bir şey olmadığından şübhələnirəm", - deyə o qeyd edib.

❑ **Musavat.com**

# Putin: "Kiyev rəhbərliyi Ukrayna xalqını məhv etmək yolunu tutub"

## "Kursk vilayətində vəziyyət mürəkkəbdir, 28 yaşayış məntəqəsi Ukraynanın nəzarətindədir"



**Ukraynanın ən döyüşə hazır bölmələri arasında itkilər kəskin şəkildə artır.**

Vladimir Putin Ukrayna ilə həmsərhəd rayonlardakı vəziyyətlə bağlı iclasda bunları bildirib.

Rusiya prezidenti qeyd edib ki, Kiyev rəhbərliyi Ukrayna xalqını məhv etmək yolunu tutub.

"Rəqib öz hərəkətlərinə layiqli cavab alacaq və xüsusi əməliyyatın bütün məqsədlərinə nail olunacaq. Amma heç bir fərq qoymadan mülki əhaliyə, mülki infrastruktura zərbələr endirən və ya nüvə enerjisi obyektlərinə təhlükə yaratmağa çalışan insanlarla hansısa danışıqlardan söhbət belə gedə bilməz", - Putin bildirib.

Vladimir Putin Ukraynanın sərhədyanı rayonlara yeni hücumlarının mümkünlüyünü istisna etməyib, o cümlədən Bryansk vilayətində təxribatlara hazır olmaqları barədə xəbərdarlıq edib.

O bəyan edib ki, Rusiya Müdafiə Nazirliyi düşməni Kursk vilayəti ərazisindən çıxarmalıdır.

Müşavirədə Təhlükəsizlik Şurası, hökumət üzvləri, Rusiya Federasiyası Prezidentinin Administrasiyasının nümayəndələri, hüquq-mühafizə orqanlarının rəhbərləri, habelə Belqorod, Bryansk və Kursk vilayətlərinin rəhbərləri iştirak ediblər.

Putin deyib ki, Kiyevin mülki şəxslərə və nüvə enerjisi obyektlərinə hücumu ilə bağlı danışılası şey yoxdur və Kursk bölgəsindəki vəziyyət Kiyev rejiminin Moskva və vasitəçilərin sülh təkliflərini niyə rədd etdiyini göstərir.

**Putin deyib ki, Müdafiə Nazirliyinin əsas vəzifəsi düşməni ərazilərimizdən çıxarmaq və sərhəd xidməti ilə birlikdə dövlət sərhədinin mühafizəsini gücləndirməkdir:** "Kiyev Kursk bölgəsindəki hərəkətləri ilə gələcəkdə danışıqlarda mövqelərini yaxşılaşdırmağa çalışır. Kiyevin Kursk bölgəsindəki hərəkəti rus qoşunlarının irəliləməsini dayandırmaq üçün hərbi məqsəd güdür. Kursk bölgəsindəki hadisələrdən sonra bütün təmas xətti boyunca hücumun sürəti nəinki azalmadı, əksinə, 1,5 dəfə artdı", - deyə Putin bildirib.

"Kursk vilayətində vəziyyət mürəkkəbdir, 28 yaşayış məntəqəsi Ukraynanın nəzarətindədir".

APA TASS-a istinadən xəbər verir ki, bunu Kursk vilayətinin qubernator səlahiyyətlərini icra edən Aleksey Smirnov Putinlə görüşdə deyib.

"Vilayətdən olan 2 minə yaxın insanın taleyi məlum deyil", - o, sözlərinə əlavə edib.

❑ **APA**



## Türkiyə Suriyadan qüvvələrini çıxarmaq üçün şərtlərini açıqlayıb

**Türkiyə Suriyadan çəkilmə ilə bağlı koordinasiya məsələsini yalnız yeni konstitusiya qəbul edildikdən, seçkilər keçirildikdən və sərhədlərin təhlükəsizliyi təmin edildikdən sonra müzakirə edə bilər.**

APA-nın Türkiyə müxbirinin verdiyi xəbərə görə, bu barədə Türkiyənin milli müdafiə naziri Yaşar Güler "Reuters"ə müsahibəsində bildirib.

O, həmçinin Suriya ilə razılaşdırılacaq yerdə nazirlərin də olduğu nümayəndə heyətləri ilə görüşün keçiriləcəyini əlavə edib.

YENİ MÜSAVAT
N 142 (8515) 13 avqust 2024

# Yay Olimpiya Oyunları - 2024 yekunlaşdı: nə umduq, nə qazandıq?

**Fazil Mustafa:** "Azərbaycan əsilli idmançıların sayının çoxalması vacibdir və..."

**2024-cü ilin 26 iyul-11 avqust tarixlərində Fransanın Paris şəhərində baş tutan XXXIII Yay Olimpiya Oyunları yekunlaşdı. Azərbaycan Milli Olimpiya Komandası XXXIII Yay Olimpiya Oyunlarında 48 idmançı ilə 15 idman növü üzrə təmsil olundu. Bu, Azərbaycanın Olimpiya oyunlarında idmançı sayının 2020-ci il olimpiadasında baş verən eniş tempindən sonra artımı idi. Azərbaycanı son olaraq 2020-ci ildə 44 idmançı təmsil eləmişdi. Bu dəfə komandanın heyətində 48 idmançıdan 19-u qadın idi. Bu da Azərbaycanın Olimpiya oyunları tarixində ciddi uğur idi. Bundan əvvəl 2020-ci ildə baş tutan turnirdə Azərbaycanı cəmi 16 qadın idmançı təmsil edirdi. Azərbaycan 2020-ci ildə Olimpiya oyunlarında idman gimnastlarının və velosipedçilərin turnirlərində təmsil olunsa da, bu dəfə heç bir idmançı bu idman növləri üzrə vəsiqə qazana bilmədi. Əvəzində Azərbaycanı Olimpiya oyunlarında birinci dəfə 3x3 basketbolçular və batut gimnastları təmsil etdi. Azərbaycan yığmasının heyətində ən çox güləşçilər - 12 nəfər və cüdoçular - 9 nəfər yer aldı. Komandanın heyətində 48 idmançıdan 29 nəfəri Olimpiya oyunlarının debütantı idi. Olimpiada təcrübəsi olan 24 idmançıdan 6 nəfəri isə bundan əvvəl turnirdə medallara da sahib olmuşdu. Komandanın heyətində yer alan idmançılardan biri son Dünya çempionu, dördü isə son Avropa çempionu idilər. Cüdoçu Hidayət Heydərov isə həm Dünya, həm də son Avropa çempionu olaraq olimpiadada da mübarizə apardı. Ümumi olaraq Azərbaycan Milli Olimpiya Komandasının heyətində yer alan 18 idmançı Dünya və Avropa çempionu idilər.**



Nəticədə Azərbaycan Milli Olimpiya Komandası Paris Olimpiadasını 7 medalla (2 qızıl, 2 gümüş və 3 bürünc) başa vurdu. Komandanın heyətində cüdoçular Hidayət Heydərov və Zelim Kotsoyev final görüşündə qələbə qazanaraq Paris Olimpiadasının qalibi oldu. Taekvondoçu Qaşım Maqomedov həlledici görüşdə zədə səbəbilə məğlub olaraq olimpiadanın gümüş medalına sahib oldu, yunan-roma güləşçisi Həsrət Cəfərov isə Paris Olimpiadasını bürünc medalla başa vurdu.

**Ədalət, Hüquq, Demokratiya Partiyasının sədri Qüdrət Həsənquliyev** Paris Olimpiadasının nəticələri ilə bağlı Xalqcebhesi.az saytına açıqlamasında maraqlı fikirlər səsləndirib. Deputat deyib ki, gözləntilərimiz daha böyük idi, amma buna da şükür: "Mən qalibləri, onların məşqçilərini, Olimpiya Komitəsinin üzvlərini təbrik edirəm, daha böyük və yeni-yeni uğurlar arzu edirəm. Onu da qeyd etməyi özümə borc bilirəm ki, hökumət dövlətin idman siyasətinə yenidən baxmalıdır. Federasiya prezidentləri mərkəzi icra hakimiyyəti orqanlarının, dövlət şirkətlərinin rəhbərləri olmamalıdır. Onlar öz işləri ilə məşğul olmalıdır. Legionerlərin milliləşdirilməsi təcrübəsinə son qoyulmalıdır. Olimpiadada bizi təmsil edən milliləşdirilmiş idmançıların sayı soydaşlarımızdan dəfələrlə çox idi. Bu reallıq ölkəmizdə idmanın inkişafının göstəricisi sayıla bilməz. Federasiya rəhbərləri milliləşdirilmiş idmançılardan tələb etməlidir ki, ən azından kurslara yazılıb dövlət dilində bir neçə kəlmə deməyi, öz azarkeşlərinə təşəkkür etməyi, yaxud onlardan üzr istəməyi öyrənsinlər. Çoxlarına bu kimi məqamlar çox kiçik görsənsə də, azarkeşlərdə narazılıq yaradır. Biz özümüz idmançı hazırlamalı, uşaq idmanının inkişafı üçün dövlət proqramı qəbul etməliyik. Vəziyyəti dəyişmək üçün ciddi qərarların qəbuluna ehtiyac var. Bir daha bizə böyük sevinc yaşatmış qalibləri, onların ailə üzvlərini təbrik edirəm".

**Milli Məclisin VI çağırış deputatı Fazil Mustaf**a mövzu ilə bağlı "Yeni Müsavat"a deyib ki, Olimpiya oyunlarında bir sıra ölkələrlə müqayisədə Azərbaycanın uğur qazandığını söyləmək olar: "Bu, müsbət bir nəticə olaraq görülə bilər. Bəzən gözlədiklərimiz baş vermir. Amma iki qızıl medal, gümüş və bürünc medalların olması sevindiricidir. Bu, müsbət dəyərləndirilə bilər. Olimpiya qarşımıza müəyyən dərsləri çıxardı. Bu dərslər nədən ibarətdir. Bizdə uşaq idman strukturunun olmaması, yaxud da effektli olmaması məsələsini gündəmə gətirdi. Elə sahələr var ki, orada idmanı kütləviləşdirsən, onun içindən daha böyük potensial ortaya qoymaq mümkün olacaq. Stadionların sayı, əlçatanlığı çoxalmalıdır. Üzgüçülük hovuzlarının əlçatanlığı çoxalmalıdır. İdman kompleksləri daha şəffaf, açıq formada gənclərin ixtiyarına verilməlidir. Güləş kimi populyar idman növünün Azərbaycanda genişlənməsinə imkan yaradılmalıdır. Elə ailələr var ki, qabiliyyətli uşaqdır, ailəsinin imkanı yoxdur inkişaf etdirməyə. Məktəb şəbəkəsi bütün bölgələrdə daha çox genişlənəndə bu sahədə də idmançıların sayı çoxalmış olur. Avarçəkmədən tutmuş digər sahələrə qədər bir çox məsələlərdə irəliləyiş əldə etmək olar. Misal üçün, gimnastikada yaxşı bir heyəti çıxarmağımız bəyənildi. Bizdə çox da inkişaf etməmiş sahə də olsa, amma son illərdə xüsusilə bu sahədə çox ciddi irəliləyişlər əldə olundu. Artıq beynəlxalq səviyyədə Azərbaycanın təmsilçiliyi özünü göstərməyə başladı. Xüsusilə də bir az ənənəvi olmayan idman növlərində azərbaycanlı idmançıların sayının çoxalması da sevindiricidir. Əvvəllər burada başqa millətlərə məxsus insanların adını görürdük, amma Azərbaycan əsilli idmançıların sayının çoxalması çox vacibdir. Misal üçün, boks kimi populyar bir idman növündə daha böyük uğurlar qazanmaq imkanımız vardı. Hər halda biz bir az Özbəkistanın, Qazaxıstanın idman infrastrukturunun necə dəyişməsi ilə bağlı təcrübəni də ciddi şəkildə öyrənməliyik. Onların hansı irəliləyiş əldə etdiyini görməyə başladıq. Söhbət bir toplumun qabiliyyətindən getmir, söhbət imkanlardan gedir. Yaradılan imkan geniş olanda kütləvilik də artır, o sahəyə də meyllənmə çox ciddi şəkildə olur. Bu baxımdan müəyyən məsələlər üzərində düşünməliyik. Olimpiadanın nəticələri ciddi təhlil olmalıdır, boşluqlarımız haradadır, onları görməliyik".

**Milli Məclisin VI çağırış deputatı Aqil Abbas da bizimlə söhbətdə mövzuya münasibət bildirib:** "Sevincliyəm ki, iki qızıl, iki gümüş, üç bürünc almışıq. Bu bizim qələbəmizdir. Əliboş gəlməmişik. Buna sevinməliyik, vəssalam".

Qeyd edək ki, ötən gün Fransanın paytaxtı Paris şəhərində XXXIII Yay Olimpiya Oyunlarının bağlanış mərasimi keçirilib. "Stad de Frans" stadionunda təşkil edilən tədbirdə əvvəlcə açılış mərasiminin ən yaddaqalan anlarının yer aldığı videoarx nümayiş olunub. Daha sonra meydanın mərkəzində dünya xəritəsi formasında hazırlanmış səhnəyə ölkələrin nümayəndə heyətləri daxil olublar. Ölkələrin rəsmi paradında Azərbaycan Bayrağını olimpiadanın gümüş mükafatçısı, taekvondoçu Qaşım Maqomedov və bədii gimnastika üzrə yarışda 5-ci yeri tutan Azərbaycanın qrup hərəkətləri komandasının üzvü Zeynəb Hümmətova dalğalandırıblar. Ardınca Paris Olimpiadasının son mükafatlandırma mərasimi baş tutub. Qadınlar arasında marafonun qaliblər fəxri kürsüyə dəvət olunublar. Niderlandlı Sifan Hassan qızıl, efiopiyalı Tiqst Assefa gümüş, keniyalı Hellen Onsando Obiri isə bürünc medala layiq görülüblər. İdmançılara mükafatları Beynəlxalq Olimpiya Komitəsinin rəhbəri Tomas Bax və Beynəlxalq Atletika Federasiyasının prezidenti Sebastyan Kou təqdim ediblər. Tədbirin bədii hissəsindən sonra Tomas Bax və "Paris-2024" Yay Olimpiya Oyunlarının təşkilat komitəsinin rəhbəri Toni Estanqe çıxış ediblər. Olimpiadanın rəsmi himni səsləndirildikdən sonra Olimpiya bayrağı endirilərək, yarışın növbəti təşkilatçı ölkəsi olan ABŞ-a ötürülüb. Bayrağı Los-Anceles şəhərinin meri Karen Bas qəbul edib. Daha sonra tanınmış aktyor Tom Kruz bayrağı götürərək arenanı tərk edib. Ardınca "Los-Anceles-2028" Yay Olimpiya Oyunlarının tanıtım videosu yayımlanıb. Sonda isə olimpiya məşəli söndürülüb və dördilliyin ən nüfuzlu idman yarışına yekun vurulub.

Azərbaycan indiyədək iştirak etdiyi Olimpiya oyunlarında ən yüksək nəticə göstərib - 28-ci yer. Müqayisə etsək, digər oyunlardan daha yüksək nəticə əldə olunub.

**❑ Afaq MİRAYİQ, "Yeni Müsavat"**

# Buzovnada Xəzərdə batan 2 nəfərin meyiti aşkarlanıb



**Avqustun 12-də Bakı şəhəri, Xəzər rayonu, Buzovna qəsəbəsi yaxınlığında dənizdə (ən yaxın sularda xilasetmə məntəqəsindən təqribən 800 m aralı, nəzarətsiz ərazi) 2 nəfərin batması ilə əlaqədar aparılan axtarış işləri yekunlaşıb.**

APA xəbər verir ki, bu barədə Fövqəladə Hallar Nazirliyi məlumat yayıb.

FHN-in Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidməti tərəfindən həyata keçirilən tədbirlər nəticəsində batan şəxslərin meyiti dalğıc-xilasedicilər tərəfindən tapılaraq çıxarılıb və aidiyyəti üzrə təhvil verilib.

# Ulduzlarla bizi necə aldadırlar - bürclərə inananlar oxusun

**Səbuhi Rəhimli:** “Əhalinin rifah halının yaxşı olmaması insanları həyatları ilə bağlı proqnoz verənlərə meylli olmağa məcbur edir”

**Psixoloq Günel İsmayıllı:** “Yatacağam və duranda möcüzə baş verəcək deyə bir şey yoxdur, bu, sadəcə, beyinlə psixoloji oyundur”





**Son illər “ulduz falı” haqqında yazıların oxunma sayı hətta gündəm xəbərlərini belə üstələyir. Hansısa bürclərə “varlanmaq”, digərinə “xəsis olmamaq” və ya “ehtiyatlı olmaq” barədə xəbərdarlıqlar geniş oxucu kütləsinin diqqətini çəkir.**

Maraqlıdır, bunun səbəbləri psixolojidir, yoxsa hansısa mifik inanca söykənir?

**Tanınmış astroloq Səbuhi Rəhimli** deyir ki, əhalinin rifah halının yaxşı olmaması insanları həyatları ilə bağlı proqnoz verənlərə meyilli olmağa məcbur edir: “Yaşam şərtləri aşağı olduğu üçün insanlar möcüzələr görmək, həyatları ilə bağlı xoş sözlər eşitmək istəyirlər. Çünki onların motivasiyaya ehtiyacı var. Küçələrdə yaşlı insanların son pullarını verib uduş kağızları aldığını görürük.

Bu, insanların ümidsizliyindən, möcüzə gözləməsindən, sıxıntıdan qurtarmaq istəməsindən irəli gəlir.

Elmi göstəriciləri analiz edib YouTube kanalımda proqnozlar verirəm. İnsanlar şərhlərdə yazırlar ki, “bir xoş söz demədiniz də”. Ancaq mən kiminsə xatirinə xoş söz deyə bilmərəm axı, nə var, onu çatdırıram.

Bəzən elə bilirlər ki, özümdən deyirəm, vergiliyəm və s. Zarafatla deyirəm ki, mənim Vergilər Nazirliyində tanışım yoxdur.

Bütün sahələrdə olduğu kimi, astrologiyada da bəzi dəllallar şou yaradır. İnsanların ehtiyaclarından istifadə edib falçılıq edirlər, bürclərlə bağlı yalançı proqnozlar verirlər. Ona görə də təqdim edəndə “ulduz falı” deyirlər. O boyda astrologiya elmini ulduz falına çeviriblər".

**Astroloqun sözlərinə görə, son vaxtlar akullikitik, yəni gizli elmlərə maraq çoxalıb:** “Təəssüf ki, fırıldaqçılar bu vəziyyətdən istifadə edir. YouTube-də 90-dan çox kanalda bürclərdən danışırlar. Amma onların heç birində mütəxəssis işi yoxdur. Bəzən yalandan Zirəddin Rzayevin, Vanqanın şəklini qoyurlar. Guya Vanqa hansısa proqnozu verib. Ümumiyyətlə, o, astrologiyadan xəbərsiz olub. Bu cür insanların əsas hədəfi pul qazanmaqdır".

**Psixoloq Günel İsmayıllı deyir ki, bürclərlə bağlı proqnozlara söykənərək yaşamaq inancla bağlıdır:** “Bu yaxınlarda bir astroloqu dinlədim, maraqlı fikirləri var idi. Astrologiya xüsusi öyrənilməli olan elmdir. Ölkəmizdə bunu öyrədən hansısa məktəb yoxdur.

Ümumilikdə isə “ulduz falı”na əsaslanaraq yaşamaq inanc məsələsidir. İnsanlar həyatda qalmaq üçün nələrəsə inanırlar. Məmnun və xoşbəxt olmaq üçün bürclərə sığınaraq yaşayırlar. Orada deyilənlərin tamamilə real olacağını düşünmək yanlışdır. İnsan həyata dair məsuliyyət götürməli, məqsədyönlü olmalı, hədəflərinə doğru əmək sərf edərək getməlidir.

Yoxsa televizoru açım, proqnozu eşidim, günümü ona uyğun qurum deyə yaşamaq olmaz. Hər kəs həyatda özünün məsuliyyətini bilməlidir. Əks halda, yatacağam və duranda möcüzə baş verəcək deyə bir şey yoxdur. Bu, sadəcə, beyinlə psixoloji oyundur".

❑ **Şahanə RƏHİMLİ**
**"Yeni Müsavat"**

## Mərkəzi Bank ən çox şikayət edilən sığorta şirkətlərini açıqladı




**Son bir ildə Azərbaycanda avtomobillərin icbari sığortası üzrə ən çox şikayət edilən şirkət “Bakı Sığorta” (2.85 indeksi ilə) olub.**

Musavat.com xəbər verir ki, bu barədə Azərbaycan Mərkəzi Bankının cari ilin iyul ayı üzrə açıqladığı şikayət indeksində bildirilib. Məlumata görə, ötən ay ən çox şikayət edilən şirkətlər arasında “Xalq Sığorta” 2.84 indeksi ilə növbəti dəfə ikinci, “Paşa Sığorta” 1.19 indeksi ilə siyahıda üçüncü olub.

Digər sığorta şirkətləri üzrə şikayət indeksi aşağıdakı kimidir:

Cədvəl. Avto-icbari sığorta üzrə şikayət indeksi, Avqust 2023 – İyul 2024

| Sığortaçılar | Şikayət indeksi |
|---|---|
| "Bakı Sığorta" ASC | 2.85 |
| "Xalq Sığorta" ASC | 2.84 |
| “Paşa Sığorta” ASC | 1.19 |
| "AtaSığorta" ASC | 1.08 |
| “Atəşgah Sığorta” ASC | 0.80 |
| "Meqa Sığorta" ASC | 0.74 |
| "Qala Sığorta" ASC | 0.43 |
| "Azərbaycan Sənaye Sığorta" ASC | 0.40 |

- yuxarı şikayət indeksi (hesablama nəticəsində əldə olunan orta göstəricidən yuxarı olan)
- orta şikayət indeksi
- aşağı şikayət indeksi (hesablama nəticəsində əldə olunan orta göstəricidən aşağı olan)

# Xaricdə təhsil üçün dövlət proqramına müraciət edənlərin sayı artıb



**Ötən illərlə müqayisədə bu il xaricdə təhsil üçün dövlət proqramına müraciət edənlərin sayı çox olub.**

APA xəbər verir ki, bunu bu gün keçirilən brifinqdə Xaricdə Təhsil Dövlət Proqramı İdarəetmə Qrupunun rəhbəri Turan Topalova deyib.

O bildirib ki, 295 gənc gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində dövlət proqramı hesabına təhsil alacaqlar. “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı”na edilən dəyişiklik ilə bu gənclərin sayı artacaq. Müraciətlər daha çoxu informasiya texnologiyaları, dövlət idarə etməsi, mühəndislik, statistika və verilənlərin təhlili ixtisasları üzrə olub".

O qeyd edib ki, həmçinin bundan əvvəl müsbət nəticə alan və gözləmə siyasında olan tələbələr bu gün Dövlət Proqramına edilən dəyişikliklə təhsil alacaq 500-dək tələbənin sırasında yer ala bilərlər.

Brifinqdə çıxış edən Elm və Təhsil Nazirinin müşaviri Nicat Məmmədli deyib ki, “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı”na edilən dəyişikliyə əsasən proqramın müddəti uzadılır:

“İkinci çox mühüm dəyişiklik isə sayın 100 nəfər artırılaraq 500 nəfərə çatdırılmasıdır. Bu dəyişiklik ilə həm də dövlət proqrama doktorantura pilləsi üzrə gənclərin xaricdə təhsilinin maliyyələşdirilməsi də əlavə edilib. Xaricdə təhsil alan gənclər ölkəmizin həm kadr potensialı, həm də elm potensialının yaxşılaşdırılmasına töhfə verəcək”.

## Bu yolda hərəkət tam məhdudlaşdırılır



**13 avqust 06:00-dan avqustun 16-sı saat 19:00-a qədər Bakı-Şamaxı-Yevlax avtomobil yolunun 20.32-23.22 km-lik hissəsində aparılacaq təmir işləri ilə əlaqədar avtonəqliyyat vasitələrinin hərəkəti tam məhdudlaşdırılacaq.**

Musavat.com bu barədə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə istinadən xəbər verir.

“Sürücülərdən aparılan işlərə anlayışla yanaşmaları, qeyd olunan müddət ərzində hərəkət istiqamətlərinə uyğun alternativ yollardan istifadə etmələri xahiş olunur”, - deyə agentlik bəyan edib.

# YENİ MÜSAVAT

Son səhifə

N 142 (8515) 13 avqust 2024

Avqust


## Bunları bilirsinizmi?

* Çox möhkəm asqıranda, qabırğalardan biri qırıla bilər.
* Asqırmağın qarşısını almaq boyunda damarın zədələnməsinə səbəb ola bilər.
* Donuzlar heç vaxt başlarını yuxarı qaldıra bilmir.
* Dünya əhalisinin demək olar ki, 50 faizi telefondan istifadə etmir.
* 1 saat qulaqlıqdan istifadə qulaqdakı mikrobların sayını 700 faiz artırır.
* Barmaq izləri kimi hər insanın özünəməxsus dil izi də var.
* Bethoven son əsərini kar halda bəstələyib.
* Eyfel qülləsinin hazırlanmasında 6400 ton ağırlığında 18.100 ədəd dəmir parçasından istifadə edilib.
* İnsan orqanizmindəki bütün damarların uzunluğu 15 min km-dir.
* Bir futbolçu topa hər dəfə başı ilə vuranda, beynində min hüceyrə ölür.
* İnsanın başında orta hesabla 30.000-100.000 ədəd saç var. Hər gün onlardan 100-ü tökülür.
* Amerikalıların 60 faizi ölkələrini xəritədə tapa bilmir.
* Dünyadakı kişilərin 10, qadınların isə 8 faizi solaxaydır.
* Qədim Çində valideynlərin ad günündə verilən ən yaxşı hədiyyə tabut hesab olunurdu.
* Günəş sisteminə daxil olan bütün planetləri bir tək Yupiterin içinə sığdırmaq mümkündür.
* Britaniya kraliçasının imperiya tacında düz 1783 brilyat qaş düzülüb. Onların arasında ən məşhuru 309 karatlıq "Afrika ulduzu"dur.
* Heç bir kağız vərəqini yeddi dəfədən artıq bərabər qatlamaq mümkün deyil.
* Kişilər qadınlara nisbətən üç dəfə çox intihar edirlər. Ancaq qadınlar kişilərdən üç dəfə artıq intihar cəhdi edirlər.
* Dünyada ən çox poçt şöbəsi olan ölkə Hindistandır. Orada 152 792 poçt şöbəsi fəaliyyət göstərir.
* 1950-ci ildə Çində orta insan ömrü 35 il olduğu halda, 2000-ci ildə bu rəqəm 70-ə çatıb.
* 39-cu ABŞ prezidenti Cimmi Karter dəqiqədə 2000 söz sürətlə oxumağı bacarırmış.

## Bu dərmanlardan sonra içki içmək ölümə səbəb ola bilər

**Əksər dərmanlar, o cümlədən "parasetamol", antibakterial preparatlar və xolesterolu azaldan dərmanlar (statinlər) alkoqolla uyğun gəlmir. Ümumiyyətlə, spirtli içki və dərman qəbulunun nəticələri gözlənilməzdir.**

Bu barədə N.İ.Piroqov adına Rusiya Milli Elmi-Tədqiqat Tibb Universitetinin molekulyar farmakologiya və radiobiologiya kafedrasının baş elmi işçisi Vladimir Roqovski bildirib.

Onun sözlərinə görə, spirtli içkilər dərmanları emal edən (metabolik edən) fermentlərin işini sürətləndirir. "Bunun nəticələri fəsadlardan tutmuş dərmanın təsirinin zəifləməsinə qədər çox fərqli ola bilər", - deyə farmakoloq izah edir. Ekspertin sözlərinə görə, spirtli içki ilə birlikdə dərmanın bir dozası belə ölümcül nəticələr üçün kifayətdir. O, nümunə kimi "parasetamol" dərmanını göstərir.

"Məsələn, başı ağrıyan insan "parasetamol" qəbul edir, sonra bir rumka hər hansı alkoqollu içki içir. Bəziləri üçün hətta bu qədəri kifayətdir ki, qaraciyər fəaliyyətini dayandırsın (kəskin hepatotoksiklik), toksinlər sürətlə qanda toplanır, beyinə təsir edir, tənəffüs mərkəzi fəaliyyətini dayandırır" - deyə o, xəbərdarlıq edib.

Ekspert bununla belə, konkret nəticələri əvvəlcədən proqnozlaşdırmağın mümkün olmadığını vurğulayıb. "Bütün insanlarda fermentlərin sürəti fərqlidir", - deyə o, əlavə edib.

Farmokoloq bildirib ki, hər bir dərman qəbuluna alkoqolun təsirini öyrənmək üçün mütəxəssislə məsləhətləşmək lazımdır.

"İçki istehlakı dərmandan bir neçə saat sonra da, bir neçə gün sonra da (məsələn antibiotik kursundan) ola bilər", - deyə Roqovski bildirib.

# Cənubi Koreyada istidən yüz minlərlə heyvan tələf oldu



**Cənubi Koreyada istilərlə bağlı xəstəliklər və mal-qara tələfatı artıb. Ölkənin Daxili İşlər Nazirliyinin məlumatına görə, mayın 20-dən bu yana istidən əziyyət çəkən xəstələrin sayı ötən illə müqayisədə 19 nəfər artaraq 2 141 nəfərə çatıb. Bu müddət ərzində 20 nəfər anomal istilərin yaratdığı xəstəliklərdən dünyasını dəyişib. Builki istilər həmçinin 562 min heyvanın həyatına son qoyub.**

Bundan əlavə, ölkə üzrə 55 balıq təsərrüfatında 500 minə yaxın balığın öldüyü bildirilir.

# Rusiyada 17 il əvvəlki cinayət barədə məlumata görə böyük mükafat verilir



**Rusiyanın Daxili İşlər Nazirliyi 17 il əvvəl itkin düşən uşaqlar haqqında məlumat verənlər üçün mükafatı artırıb. DİN 2007-ci ildə Pskov vilayətinin Velikiye Luki şəhərində yoxa çıxan uşaqlar haqqında məlumat üçün iki milyon rubl (təxminən 39 min manat) təklif edir. İstintaqın məlumatına görə, təxminən 20 il əvvəl dərsdən sonra evə qayıdan 10 yaşlı 3 uşaq naməlum şəxslə rastlaşıb. O, özünü paytaxtdan gələn direktor kimi təqdim edib. Kişi kosmosdan bəhs edən filmə aktyorlar axtardığını deyib və uşaqları onunla ekran testinə gəlməyə dəvət edib. Uşaqlardan biri musiqi məktəbinə gecikdiyi üçün imtina edib. Digər iki uşaq isə razılaşıb və bundan sonra onları bir daha görən olmayıb. Polis adam oğurluğu maddəsi ilə cinayət işi açıb. Üstündən illər keçsə də, cinayətin üstü hələ də açılmayıb. Lakin axtarışlar davam edir.**



## İngiltərə xəstəxanalarında kişilərə qəribə sual verilir

**Böyük Britaniyada rentgenoloqlar üçün yeni tövsiyələr dərc olunub. İndi həkimlər rentgen müayinəsindən əvvəl cinsindən asılı olmayaraq bütün xəstələrdən, o cümlədən də kişilərdən hamilə olub-olmadıqlarını soruşmalıdırlar. Qərar inklüzivlik və xəstələrin təhlükəsizliyinə dair öhdəliklərin bir hissəsi kimi qəbul edilib, lakin artıq bir çox sual və narazılıq doğurub.**

Yeni qaydaların tətbiqinə hamiləliyindən xəbəri olmayan və KT müayinəsindən keçən transgender kişinin işi səbəb olub. Müayinə zamanı onun hamiləliyi üzə çıxıb. Qeyd edək ki, rentgen şüaları doğulmamış uşaqlar üçün radiasiyaya məruz qalma baxımından zərərlidir.

## Qadın ona xəyanət edən ərini süni tənəffüs aparatından ayırdı

**Çində qəribə ölüm hadisəsi baş verib. Ərinin xəyanətini öyrənən qadın onu qeyri-adi şəkildə ölümünə səbəb olub. Çinin Liaoninq vilayətində baş verən hadisə ölkədə müzakirələrə yol açıb. Belə ki, qadın komada olan ərinin süni nəfəs aparatından ayrılmasını istəyib. Qadın buna səbəb kimi kişinin ona xəyanət etməsini və pulu olmadığını göstərib. Qeyd edək ki, kişini xəstəxanaya məşuqəsi gətirsə də, o, sonradan qaçıb gizlənib. Kişinin bütün əməliyyat xərcləri qadının üstünə qalıb. Qadın da xərcləri qarşılamayacağını gördükdə, onun xəyanətini də nəzərə alaraq ərinin ölümünə razılıq verib.**

Məlumat üçün bildirək ki, Çindəki qanunlara görə, həyatı risk altında olan şəxslərin müalicəsi onun yaxınlarının qərarı ilə dayandırıla bilər.

## Hər gün pomidor yemək niyə vacibdir?



**Pomidor daha tez-tez yeməyə dəyər ola biləcək ümumi tərəvəzdir. Pomidor əla dadı və şirəliliyi ilə yanaşı (demək olar ki, 95 faizi sudan ibarətdir) orqanizmə müsbət təsir göstərə bilən vitamin və qida maddələrinin əsl anbarıdır. Pomidorda olan likopen, xlorogen turşu və naringen kimi antioksidantlar onları nəinki rəngarəng və canlı edir, həm də bədənimizi zərərli ultrabənövşəyi şüalardan effektiv şəkildə qoruyur. Bu, pomidoru gündəlik rasionunuza daxil etmək üçün başqa yaxşı səbəb verir. Pomidorun tərkibindəki C vitamininin zənginliyi şübhəsiz diqqətəlayiqdir. Gündə yalnız bir pomidor, sağlam immunitet sistemini qorumaq və toxumaların böyüməsini və sağalmasını təşviq etmək üçün vacib olan gündəlik C vitamini ehtiyacınızın dörddə birini təmin edə bilər. Bu, vegetarianlar və veganlar üçün xüsusilə vacibdir, onlar üçün bitki mənşəli qidalardan kifayət qədər dəmir almaq həmişə asan deyil. Pomidor bu vacib elementin udulmasına kömək edir.**

Pomidor həm də əla lif mənbəyidir. Orta hesabla bir pomidor bədəni təxminən 1,5 qram liflə təmin edir. Həll olunmayan lif həzm sistemini dəstəkləyir və qəbizlik problemləri üçün xüsusilə faydalı ola bilər, həll olunan lif isə karbohidratların daha yavaş udulmasına kömək edir və qan şəkərinin sabit səviyyəsini saxlamağa kömək edir.

Pomidorda olan kalium bədəndəki suyun səviyyəsini tənzimləməkdə və qan təzyiqinə nəzarət etməkdə əsas rol oynayır. Bununla belə, tədbiri xatırlamaq vacibdir, çünki həddindən artıq kalium, xüsusilə böyrək problemləri olan və ya müəyyən dərmanlar qəbul edən insanlar üçün sağlamlığı üçün mənfi təsir göstərə bilər. Beləliklə, pomidor yalnız dadlı yemək deyil, həm də ümumi sağlamlığı qorumağa kömək edən əsl bioloji aktiv məhsuldur.


Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d

Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dəqiqə" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114

SAYI: 1.500